# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

03 fevral 2026-cı il, çərşənbə axşamı
№ 020 (7087)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!




## Azərbaycanın etibarlı gələcəyi

Bax səh. 2




# İlham Əliyev BƏƏ-də işgüzar səfərdədir



Azərbaycan Respublikasının Prezidenti fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib. Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşılayıb.

## Bakıdan Tehrana vasitəçilik təklifi...

Bax səh. 2

## Heydər Əliyev “Durun çıxın gedin!”, - dedi

### “Boz kardinal”ın “kardinallıq” “azarı”...

Bax səh. 5

## Bakı WUF13-ə hazırdır



Bax səh. 4

## Azərbaycan öhdəliklərinə əməl edir, bəs Ermənistan?

Bax səh. 3

## Milli Məclisin yaz sessiyası başlayıb

Bax səh. 3

## Sülh gündəliyinin enerji platforması

Bax səh. 5

## Türkün gücü daha da möhkəmlənir...

Bax səh. 6

## Rusiya və Ukrayna liderləri görüşəcəkmi?

Bax səh. 6

## Brüssel “müstəqillik” arzusundadır



Bax səh. 7

## “Rəqəmsal qızıl” bazarında çalxalanma



Bax səh. 7

# Bakıdan Tehrana vasitəçilik təklifi...

## Azərbaycan gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazırdır



### İlham Əliyev Məsud Pezeşkian ilə telefonla danışıb

Qlobal miqyasda baş verən geosiyasi kataklizmlər, böyük güclər arasında dərinləşən rəqabət və lokal regionlarda müşahidə olunan daxili təlatümlər sadəcə ayrı-ayrı ölkələrin deyil, bütövlükdə regionların siyasi və iqtisadi ab-havasına ciddi təsir göstərir. Xüsusilə beynəlxalq münasibətlər sistemində yeni nizamın formalaşdığı bir dövrdə bu amillər daha qabarıq şəkildə ön plana çıxır və dövlətlərin davranış modellərini yenidən müəyyənləşdirir. Çünki müasir dövrdə regional sabitlik anlayışı artıq tək hərbi təhlükəsizliklə məhdudlaşmır, iqtisadi dayanıqlıq, nəqliyyat-kommunikasiya təhlükəsizliyi, enerji marşrutlarının etibarlılığı və siyasi dialoqun davamlılığı ilə sıx şəkildə bağlıdır.

Azərbaycan son altı il ərzində Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi-iqtisadi reallıqlarla bölgənin inkişaf trayektoriyasını əsaslı şəkildə dəyişib. 2020-ci ildə əldə olunan tarixi Qələbə regionda illərlə davam edən qeyri-müəyyənliyə son qoymaqla yanaşı, yeni əməkdaşlıq imkanlarının əsasını yaradıb. Bu gün Azərbaycanın təşəbbüskarı olduğu Zəngəzur dəhlizi (TRİPP) kimi strateji layihələr bütövlükdə Avrasiya məkanının nəqliyyat və logistika xəritəsini yenidən formalaşdırır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin intensivləşdirilməsi, iqtisadi tranzitin təhlükəsiz və dayanıqlı şəkildə təşkili Bakını regionun əsas bağlantı və sabitləşdirici mərkəzinə çevirir.

### Fundamental mövqe dəyişməzdir...

Bu mənada, Azərbaycan yeni təhlükəsizlik arxitekturasının qurulmasına töhfə verərək regional münasibətlərin konfrontasiya deyil, əməkdaşlıq müstəvisində inkişafına çalışır. Bakı hər zaman açıq şəkildə bəyan edib ki, regional münasibətlər qarşılıqlı hörmət, suverenlik prinsipləri və təhlükəsizlik maraqları üzərində tənzimlənməlidir. Bu baxımdan, regionda baş verən bütün proseslər Azərbaycan tərəfindən diqqətlə və həssaslıqla izlənilir. Xüsusilə, İranda baş verən gərginliklər qeyd oluna bilər. Çünki Azərbaycanın fundamental mövqeyi dəyişməzdir: biz regionda sabitliyin, sülhün, əməkdaşlığın və tərəfdaşlığın tərəfdarıyıq və bu xətti ardıcıl şəkildə davam etdiririk. Azərbaycan - İran münasibətləri isə tarixən yaxın qonşuluq, ortaq coğrafi məkan və qarşılıqlı maraqlar üzərində formalaşıb. İki ölkə arasında münasibətlər müxtəlif dövrlərdə fərqli mərhələlərdən keçsə də, Bakı hər zaman Tehrana qarşı konstruktiv və praqmatik mövqe nümayiş etdirib. Son dövrlərdə İran daxilində və ətrafında baş verən proseslər fonunda bu münasibətlərin sabit və etibarlı məcrada inkişafı xüsusi əhəmiyyət daşıyır. Qeyd olunmalıdır ki, İranda Məsud Pezeşkianın hakimiyyətə gəlişindən sonra Azərbaycan - İran münasibətlərində müşahidə olunan yeni mərhələ bu baxımdan diqqət çəkir. İran Prezidentinin Bakıya rəsmi səfəri, səfər çərçivəsində aparılan yüksək səviyyəli danışıqlar iki ölkə arasında münasibətlərin normal qonşuluq prinsipləri əsasında inkişaf etdiyini bir daha təsdiqlədi. Tərəflər qarşılıqlı hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanan dialoqun gücləndirilməsində maraqlı olduqlarını açıq şəkildə nümayiş etdirdilər.

### Bakı danışıqlar və qarşılıqlı anlaşma yolunun tərəfdarıdır

Bununla belə, regionda artan gərginliklər fonunda Bakı İran ətrafında cərəyan edən proseslərə biganə qala bilməz. Azərbaycan üçün regional təhlükəsizlik amili olduqca vacib bir komponentdir. Məhz bu səbəbdən Azərbaycan İranda baş verən hadisələrdən narahatlıq keçirir və daim dialoq, əməkdaşlıq və sülh çağırışları edir. Bakı hesab edir ki, regionda qarşılıqlı etimadın möhkəmləndirilməsi və açıq ünsiyyət mexanizmlərinin qorunması bütün tərəflərin maraqlarına cavab verir. Qeyd edək ki, yanvarın 31-də Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib. Söhbət zamanı Azərbaycan ilə İran arasında münasibətlərin dostluq, qardaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslandığı və xalqlarımız arasında tarixi, etnik və dini bağların olduğu bir daha qeyd edilib.

Telefon danışığı əsnasında İran Prezidentinin Azərbaycana səfərləri, dövlət başçılarının görüşləri və apardıqları səmərəli danışıqlar məmnunluqla xatırlanıb, bunların ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyi qeyd olunub. Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi üzrə işlərin qrafikə uyğun aparıldığı vurğulanıb.

Dövlətimizin başçısı bölgədə yaranmış vəziyyətin narahatlıq doğurduğunu ifadə edərək, Azərbaycanın gərginliyin aradan qaldırılmasına töhfə verməyə hazır olduğunu bildirib və ölkəmizin bu kimi məsələlərin danışıqlar və qarşılıqlı anlaşma yolu ilə həllinin tərəfdarı olduğunu vurğulayıb.

Prezident Məsud Pezeşkian öz tərəfindən Prezident İlham Əliyevə təşəkkürünü bildirib. Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif aspektləri və gələcək birgə addımlar barəsində fikir mübadiləsi aparılıb, təmasların davam etdirilməsi barədə razılıq əldə olunub.

### Sabitlik amili Azərbaycanın xarici siyasətinin prioriteti kimi

Azərbaycanın xarici siyasət konsepsiyasının əsas sütunlarından biri yaxın coğrafiyada sabitliyin və təhlükəsizliyin təmin olunmasıdır. Bakı dəfələrlə bəyan edib ki, ətraf bölgələrdə baş verən siyasi və hərbi kataklizmlər birbaşa olaraq Azərbaycanın milli maraqlarına təsir göstərir. Bu səbəbdən ölkəmiz regionda gərginliyin artmasının deyil, qarşılıqlı etimada əsaslanan əməkdaşlığın gücləndirilməsinin tərəfdarıdır. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, "Biz ətrafımızda sülhün olmasını istəyirik".

Azərbaycan bu istiqamətdə yalnız bəyanatlarla kifayətlənmir, praktik müstəvidə də bu xətti ardıcıl şəkildə həyata keçirir. Son illərdə Bakı müxtəlif regional və beynəlxalq platformalarda vasitəçilik missiyası ilə çıxış edərək münaqişələrin dialoq yolu ilə həllinə töhfə verib. İstər Yaxın Şərqdə, istərsə də Cənubi Qafqazda baş verən proseslər Bakının diqqət mərkəzindədir. Eyni fikirləri Suriya-İsrail, İsrail - Türkiyə arasında təmasların formalaşmasına verilən töhfə barədə də demək olar. Bakının isə bu kimi məsələlərdə ortaya qoyduğu mövqe masa arxasına oturan dövlətlər tərəfindən yüksək qiymətləndirilib. Bu kimi vacib missiyaları uğurla həyata keçirməsi isə Bakının Sülh Şurasının təsisçi ölkələrindən biri olmasını şərtləndirdi. Azərbaycan bu gün rəsmən tarixi Qəzza problemini aradan qalxmasında əsaslı rol oynayır. Bu mənada, Azərbaycan bu gün İranla bağlı məsələdə də eyni mövqedən və ən uğurlu vasitəçi kimi çıxış edə bilər.

### Sülhə əsaslanan regional inkişaf modeli

Zəngəzur dəhlizi(TRİPP), Orta Dəhliz və Şimal-Cənub nəqliyyat marşrutları Azərbaycanın regional və qlobal iqtisadiyyatda rolunu daha da artırır. Belə bir şəraitdə regionda təlatümlərin yaranması Azərbaycanın strateji maraqlarına ziddir. Çünki sabitlik olmadan davamlı inkişaf mümkün deyil. Bakı üçün əsas prioritet sülh mühitinin qorunması və əməkdaşlığın genişləndirilməsidir. Azərbaycan hesab edir ki, iqtisadi inteqrasiya region ölkələri arasında qarşılıqlı əlaqələri artırmaqla yanaşı, təhlükəsizlik risklərini də azaldır. Məhz bu səbəbdən Azərbaycan regional layihələrini inklüziv xarakterdə təqdim edir və bütün qonşu ölkələri bu proseslərdə iştirak etməyə dəvət edir. Bakı üçün iqtisadi inkişaf geosiyasi qarşıdurmaların alətinə çevrilməməli, əksinə, sülhün və tərəfdaşlığın möhkəmlənməsinə xidmət etməlidir. Azərbaycanın bugünkü mövqeyi onu göstərir ki, ölkəmiz regionda uzunmüddətli sabitlik və rifah naminə məsuliyyətli siyasət yürütməyə davam edir.

***Pərviz SADAYOĞLU***

# Azərbaycanın etibarlı gələcəyi

## Prezident: Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!

Azərbaycan dövləti gənclər siyasətini özünün sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirirb. Bunun təsdiqi olaraq Prezident İlham Əliyev 2026-cı il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında sərəncam imzalayıb və Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə müraciət ünvanlayıb. Dövlətimizin başçısı həmçinin sosial media hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib. "Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!", - deyə paylaşımda vurğulanır.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyeva da sosial şəbəkə hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib. Paylaşımında gənclərə böyük inamını ifadə edən Birinci vitse-prezident bildirib: "Əminəm ki, Azərbaycan gəncləri öz uğurları, qələbə və nailiyyətləri ilə xalqımızı daim sevindirəcək və ölkəmizin inkişafına layiqli töhfələr verəcəklər".



### Heydər Əliyevin əsasını qoyduğu siyasət

Böyük siyasətçi Heydər Əliyevin adı Azərbaycan tarixində xalqımızın həyatında müstəsna rol oynayan Lider kimi əbədi qalacaq. Heydər Əliyevin böyük xidmətlərindən biri də Onun respublikamızda gənclər siyasətinin əsasını qoymasıdır. "Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl gənclərimizin geniş və açıq müzakirə tribunasına çevrilmiş ilk ümumrespublika gənclər forumunun keçirildiyi günün ölkəmizdə Gənclər Günü kimi qeyd olunması ənənəsi və bu cür forumların müntəzəm təşkili sübut edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Ötən onilliklər ərzində icra olunan dövlət proqramları nəticəsində gənclərin fərdi inkişafı və ictimai-siyasi fəallığının artması üçün əlverişli zəmin yaranmış və dövlət quruculuğunda onların rolu daha da güclənmişdir", - deyə Prezident İlham Əliyev 2 fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə müraciətində vurğulayıb.

Böyük siyasətçi olan Heydər Əliyev gənclərə xüsusi münasibət bəsləyirdi. Təsadüfi deyildir ki, 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikamızın siyasi rəhbərliyinə qayıdan Heydər Əliyev ilk görüşlərindən birini məhz gənclərlə keçirdi. Bu görüş açıq dialoq şəraitində keçdi, gənclər problemlərini dilə gətirdilər, arzu və istəklərini bildirdilər. Sonrakı illərdə Heydər Əliyevin imzaladığı bir çox sənədlər respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şərait yaratdı, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, habelə təşkilati-hüquqi əsaslarını müəyyən etdi. Prezident Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Heydər Əliyevin gənc nəslə qayğısının təzahürü kimi ötən əsrin 70-80-ci illərində Onun tərəfindən əsası qoyulmuş azərbaycanlı gənclərin xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilməsi ənənəsi bərpa edildi. Artıq 2003-cü ildə dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a qədər ixtisas üzrə 3000-dən çox azərbaycanlı gənc təhsil alırdı. Heydər Əliyev dövlət hesabına xaricdə təhsil alan gənclərin sosial durumunu daim diqqət mərkəzində saxlayırdı. Onun göstərişi ilə təkcə Türkiyədə dövlət hesabına təhsil alan 700 azərbaycanlı tələbənin hər birinə təqaüd verilməsi üçün ildə 2,4 milyard manat vəsait ayrılmışdı. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarında ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşməsi, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərar qəbul etməsi dahi şəxsiyyətin gənclərə diqqətinin daha bir nümunəsidir. Heydər Əliyev tərəfindən 1996-cı il 22 iyun tarixində imzalanmış "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərmana əsasən, istedadlı gənclərə dövlət qayğısını təmin etmək məqsədilə gənc istedadların "Qızıl kitab"ı yaradıldı. Eyni zamanda, "Qızıl kitab"a adları yazılmış gənc istedadlara təqdim etmək üçün xüsusi təqaüd təsis edildi.

Respublikamızda gənclər forumlarının keçirilməsi ideyası da Heydər Əliyevdən gəlib. Onun 1995-ci ildə irəli sürdüyü təşəbbüsdən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının təşkili ənənəsi start verildi. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumunda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Prezident Heydər Əliyev gənc nəslə həssas yanaşmasının təzahürü olaraq 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" ayrıca fərman imzaladı. Bu sənədlə ölkədə gənclərin inkişafı üçün daha əlverişli şəraitin yaradılması təmin edildi.

### Gənclər siyasətində varislik

Uğurlu inkişaf modelinə malik olan Azərbaycanda gənclər siyasətinin səmərəliliyi ilk növbədə onunla şərtlənir ki, son 22 ildə Prezident İlham Əliyev digər istiqamətlərdə olduğu kimi, gənclər siyasətinin də ardıcıllığını yüksək səviyyədə təmin edib. Belə ki, ötən dövrdə paytaxtda və regionlarda 32 "Gənclər evi" sosial xidmət müəssisəsi tikilib, ölkənin bütün inzibati ərazi vahidlərində Gənclərin İnkişaf və Karyera Mərkəzi nümayəndəliklərinin fəaliyyəti təşkil olunub, onlarla Olimpiya İdman Kompleksi və digər idman qurğusu gənclərin və idman həvəskarlarının istifadəsinə verilib. Gənclərin məşğulluğu, biznes fəaliyyətinin təşkili və karyera quruculuğuna xüsusi diqqət yetirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2007-ci il respublikamızda "Gənclər ili" elan edilib. Dövlətimizin başçısı 30 dekabr 2019-cu il tarixində "Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında" sərəncam imzalayıb ki, bu da ölkəmizdə, eyni zamanda, gənclərə göstərilən diqqət və qayğının daha bir bariz nümunəsidir.

Dövlət başçısının təşəbbüsü ilə 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu yaradılıb. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyulub. 2018-ci ildə fond yenidən təşkil edilərək Azərbaycan Respublikasının Gənclər Fondu adlandırılıb. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi olub. Prezident İlham Əliyevin bu günlərdə imzaladığı növbəti sərəncamla elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən daha 10 gənc 2026-cı il Gənclər üçün Prezident mükafatlarına layiq görülüb.

Ölkəmizdə bacarıqlı gənc kadrların irəli çəkilməsi də diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasıdır.

### Gənclər üçün böyük imtahan

Respublikamızda xalqına, ölkəsinə, dövlətinə bağlı olan vətənpərvər gənclərin yetişməsi Azərbaycanın milli gücünü artıran çox mühüm amildir. Vətən müharibəsində cəmiyyətin bütün təbəqələrinin nümayəndələri iştirak ediblər. Lakin müharibənin əsas ağırlığını gənclərimiz çəkiblər. Məhz gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində əldə edilmiş nailiyyətlər Vətən müharibəsində şanlı Zəfərimizi şərtləndirən əsas amillərdən biri olub. "Dövlətimizin yaratdığı hərtərəfli şəraitin və aşıladığı vətənpərvərlik ruhunun nəticəsidir ki, Azərbaycan gəncliyi üçün böyük imtahan olan 44 günlük Vətən müharibəsində gənclərimiz misilsiz rəşadət göstərdilər. 30 illik işğala son qoyaraq xalqımızın Qələbə əzmini bütün dünyaya nümayiş etdirən qəhrəmanlarımızın əksəriyyətini məhz gənclər təşkil etmişdir. Bu Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Mübariz ABDULLAYEV***



# Milli Məclisin yaz sessiyası başlayıb

## Sessiyanın qanunvericilik işləri planı təsdiqlənib

*Nardar BAYRAMLI*

Fevralın 2-də Milli Məclisin yaz sessiyası öz işinə başlayıb. Əvvəlcə Dövlət Himni səsləndirilib. İclasın gündəliyinə 16 məsələ daxil edilib. Spiker Sahibə Qafarova çıxış edərək Milli Məclisin ötən ili uğurla başa vurduğunu bildirib. Onun sözlərinə görə, Milli Məclisin beynəlxalq fəaliyyəti sessiyalar arasındakı dövrdə də davam edib. Belə ki, deputatlar 2 beynəlxalq təşkilatın tədbirlərində iştirak ediblər. Parlamentin 10 üzvü tərəfindən 6 xarici ölkəyə 18 səfər həyata keçirilib. Yanvar ayı ərzində 5 ölkənin və 1 beynəlxalq təşkilatın 6 nümayəndə heyəti, ümumən 44 nəfər xarici qonaq Milli Məclisdə olub.

S.Qafarova, həmçinin Bəhreyn Krallığına, Birləşmiş Ərəb Əmirliklərinə və Oman Sultanlığına etdiyi səfərlər barədə də ətraflı məlumat verib. Bəhreyn Krallığına səfər çərçivəsində Bəhreyn Kralı Həməd bin İsa Al Xəlifə, Şura Məclisinin sədri Əli bin Saleh Al Saleh, Nümayəndələr Şurasının sədri Əhməd bin Salman Al Musalam ilə görüşlər olub. Eləcə də, Milli Məclis və Bəhreyn Nümayəndələr Şurası arasında Anlaşma Memorandumu imzalanıb. Bundan əlavə, səfər çərçivəsində spikerin başçılıq etdiyi nümayəndə heyəti Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında iştirak edib. Plenar sessiyanın yekununda Manama Bəyannaməsi qəbul edilib. Bəyannamədə Asiya Parlament Assambleyasına uğurlu sədrliyinə, təşkilatın məqsədlərinin reallaşdırılması işində liderliyinə və səylərinə görə Milli Məclisə təşəkkür edilib. Bəyannamədə həmçinin multikulturalizmin, tolerantlığın təşviq olunmasında ölkəmizin ardıcıl və prinsipial səyləri yüksək qiymətləndirilib. Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında təşkilata sədrlik rəsmi olaraq Bəhreyn Krallığının Nümayəndələr Şurasına təhvil verilib.

Birləşmiş Ərəb Əmirliklərinə səfərdə isə əsas məqsədlərdən biri Aralıq Dənizi Parlament Assambleyasının Qadın Parlament Forumunun 2-ci sessiyasında iştirak etmək idi. Spiker S.Qafarova çıxışında tədbirin mövzusunun əhəmiyyəti barədə fikirlərini bölüşüb. O, Azərbaycanda gender bərabərliyi sahəsində mövcud olan vəziyyət və müsbət təcrübə haqqında tədbir iştirakçılarına məlumat verib. S.Qafarovanın sözlərinə görə, səfərdə məqsədlərdən biri də Aralıq Dənizi Parlament Assambleyasının sədri Cülio Çentemero ilə görüşdə danışıqlar aparmaq idi. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər nəzərdən keçirilib. Xüsusən Parlament Assambleyasının Büro iclasında Milli Məclisə müşahidəçi statusunun verilməsi ilə bağlı müraciətin təsdiqindən məmnunluq ifadə olunub. Yekun qərar verildikdən sonra bu statusun parlamentlərarası əlaqələrin inkişafı üçün yeni imkanlar yaradacağına inam bildirilib.

Oman Sultanlığına səfər zamanı isə Milli Məclislə Oman Şura Məclisi arasında Anlaşma Memorandumunun imzalanması barədə razılıq əldə edilib. Spiker qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən xarici siyasəti, dövlətimizin beynəlxalq fəaliyyətinə strateji baxışı Milli Məclisin həyata keçirdiyi parlament diplomatiyasının uğurunun əsas amilidir.

Daha sonra S.Qafarova 2 fevral tarixinin Gənclər Günü kimi qeyd edildiyini, dövlət başçısının sərəncamı ilə bir sıra fəaliyyət sahələrində fərqlənən gənclərin bir qrupuna Prezident mükafatları verildiyini deyib. Onun sözlərinə görə, Azərbaycan gəncləri dövlət və cəmiyyət həyatının bütün sahələrində önəmli rol oynayır, ölkəmizin inkişafı, bacarıqlarını sərf edirlər: "Gənclərimiz 44 günlük Vətən müharibəsində, antiterror əməliyyatında tarixi qələbələrimizin əldə edilməsində müstəsna rol oynamışlar. Gənclər Günü münasibəti ilə mən bütün Azərbaycan gənclərini ürəkdən təbrik edir, onlara möhkəm can sağlığı və uğurlar arzulayıram".

Spiker çıxışında yaz sessiyasında görüləcək işlər haqqında da qısa məlumat verib. O, deyib ki, sessiyanın qanunvericilik işləri planı hazırlanıb. Bu sessiyada qanun layihələrini müzakirə və qəbul etməklə yanaşı, Konstitusiyanın tələbinə uyğun olaraq, Nazirlər Kabinetinin hesabatı dinləniləcək. Bundan əlavə, Milli Məclisin iclaslarından birində 2025-ci ilin dövlət büdcəsinin icrası haqqında məsələ müzakirəyə təqdim ediləcək. Sessiyada Hesablama Palatasının, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın), bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun və gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik hesabat, məlumat və məruzələri də dinləniləcək.

"Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı, parlamentin səlahiyyətləri ilə bağlı olan digər məsələlər də diqqət mərkəzində saxlanılacaq",-deyən S.Qafarova yaz sessiyasının yüksək səviyyədə keçəcəyinə əminliyini ifadə edib.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Komitə sədrləri Tahir Rzayev, Zahid Oruc, Fazil Mustafa, deputatlar Razi Nurullayev, Elnarə Akimova, Rövşən Muradov, Vüqar Bayramov və başqaları aktual mövzularla bağlı fikirlərini bildiriblər.

Sonra iclasın gündəliyində olan məsələlər müzakirəyə çıxarılıb. Əvvəlcə "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu II səsvermədə qəbul olunub. Qanun layihəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin (maddə 3-1 və maddə 28-1) əlavə edilməsi, 1 maddənin (maddə 5) çıxarılması, bir sıra maddələrdə və Preambula hissədə isə dəyişikliklər edilməsi nəzərdə tutulur. Layihəyə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının Preambulasında da öz əksini tapacaq.

Konstitusiyaya əlavə edilməsi nəzərdə tutulan "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən, "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir".

Sonra Milli Məclisin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planı təsdiqlənib. Eləcə də, parlamentin Hesablayıcı və İntizam komissiyası yaradılıb.

Daha sonra İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvlərinin seçilməsi məsələsinə baxılıb. Belə ki, Yayım Şurasına Rəşad Rəsullu, İlahə Qədimova, Salman Musayev, Simran Həsənov, Həcərxanım Babayeva və Aytən Babayevanın namizədliyi irəli sürülüb. Müzakirələrdən sonra məsələ səsverməyə çıxarılıb, Rəşad Rəsullu, Salman Musayev və Həcərxanım Babayeva 6 il müddətinə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü seçiliblər.

Qeyd edək ki, deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

# Azərbaycan öhdəliklərinə əməl edir, bəs Ermənistan?

## Ölkəmiz ərazisindən İrəvana növbəti dəfə taxıl yükünün tranzit keçidi təmin olunub

Azərbaycan ərazisindən Ermənistana növbəti tranzit yük keçidi təmin edilib. Bu dəfə ölkəmizin ərazisindən tranzit keçməklə ümumi çəkisi 1746 ton olan 25 ədəd taxıl yüklü vaqon Rusiyadan Ermənistana göndərilib.

Qeyd edək ki, Azərbaycanla Ermənistan arasında nəqliyyat bağlantısı Prezident İlham Əliyevin qərarı ilə tranzit məhdudiyyətlərinin aradan qaldırılması çərçivəsində baş tutur. Rusiyadan Ermənistana Azərbaycan ərazisindən tranzit keçməklə taxıl daşınmasına 9 noyabr 2025-ci il tarixindən start verilib. İndiyədək Rusiyadan Ermənistana Azərbaycan ərazisindən tranzit keçməklə 285 vaqon ( 19 900 tona yaxın) taxıl göndərilib. Bundan başqa, Azərbaycan Ermənistana bir neçə dəfə dizel yanacağı və benzin də ixrac edib.

## Kommunikasiyaların blokdan çıxarılması sülh gündəliyinin tərkib hissəsi kimi

Azərbaycanın öz məhsullarını Ermənistana ixrac etməsi, həmçinin tranzit yüklərin daşınmasına şərait yaratması ölkəmizin postmüharibə dövründə müəyyənləşdirdiyi sülh gündəliyinin tərkib hissəsidir. Məlumdur ki, Azərbaycan 44 günlük Vətən müharibəsinin nəticələrinə uyğun olaraq, regionda yeni reallıqlar yaradıb. Bu reallıqlar onilliklər boyunca müharibə təhdidlərindən əziyyət çəkən Cənubi Qafqaz coğrafiyasında əməkdaşlıq, sabitlik və sülh üçün geniş fürsətlər formalaşdırıb. Azərbaycan müharibə başa çatdıqdan sonra qalib dövlət olmasına rəğmən, heç bir ilkin şərt irəli sürmədən bu fürsətləri reallığa çevirmək əzmini ortaya qoydu və Ermənistanla sülh prosesinin başlanmasına nail oldu. Azərbaycanın səyləri, ardıcıl şəkildə sülh prosesinə sadiq qalması öz bəhrəsini verdi. Belə ki, bütün maneələr dəf edilərək ötən il avqustun 8-dəVaşinqtonda, Ağ Evin oval kabinetində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə yekun sülh sazişi paraflandı və digər mühüm razılaşmalar əldə olundu.



Vaşinqtonda aparılan müzakirələrin ən mühüm nəticələrindən biri isə regionda kommunikasiyaların blokdan çıxarılmasının razılaşdırılmasıdır. Bununla bağlı liderlərin imzaladığı Birgə Bəyanatda konkret müddəalar yer alıb. Dünyanın siyasi, iqtisadi və hərbi güc mərkəzi sayılan ABŞ-ın Prezidenti D.Trampın şahidliyi ilə imzalanan sənəddə oxuyuruq: "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir".

Birgə Bəyanatdan da göründüyü kimi, regionda kommunikasiyaların blokdan çıxarılması ilə bağlı Azərbaycanın lap əvvəldən ortaya qoyduğu və əsaslandırdığı mövqe Vaşinqton görüşündə də nəzərə alınıb. Xatırladaq ki, 44 günlük müharibənin sonuclanmasını bildirən məlum üçtərəfli bəyanata da Prezident İlham Əliyevin təkidi ilə oxşar məzmunlu bənd salınmışdı.

## Bütün region dövlətlərinin mənafeyi naminə

Tənzimləmə prosesi çərçivəsində kommunikasiyaların blokdan çıxarılması, o cümlədən də Zəngəzur dəhlizinin (TRIPP marşrutu) yaradılması bütün region dövlətlərinin maraqlarına uyğundur. Azərbaycanın bu məsələ ilə bağlı həm üçtərəfli bəyanatda, həm də Vaşinqton görüşündə israrlı yanaşma sərgiləməsi onunla bağlıdır ki, kommunikasiyaların blokdan çıxarılması ölkəmiz üçün strateji önəm daşıyır. Bununla bir tərəfdən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat bağlantısı yaradılacaq, digər tərəfdən isə ölkəmizin tranzit imkanları daha da genişlənəcək.



Kommunikasiyaların blokdan çıxarılması, o cümlədən də Zəngəzur dəhlizinin (TRIPP marşrutunun) yaradılmasının önəmi eyni zamanda hazırkı geosiyasi amillərlə şərtlənir. Son illərdə Rusiya-Ukrayna müharibəsi səbəbindən Şimal marşrutlarının funksionallığı əhəmiyyətli dərəcədə azalıb. Belə bir şəraitdə Orta Dəhliz Avrasiyada ən etibarlı və təhlükəsiz marşrut kimi diqqət çəkir. Transxəzər marşrutu ilə Çindən, Mərkəzi Asiya ölkələrindən yükləri Xəzər dənizindən, Azərbaycan və Türkiyə üzərindən keçirməklə Avropa bazarlarına təhlükəsiz və daha qısa müddətdə çatdırmaq mümkündür. Azərbaycanın strateji baxışına görə Zəngəzur dəhlizi (TRIPP marşrutu) Orta Dəhlizin bir qolu kimi inkişaf etdiriləcək. Hazırda Orta Dəhlizin Gürcüstandan keçən seqmenti aktivdir. Zəngəzur dəhlizinin (TRIPP marşrutunun) yaradılması ilə Avrasiya coğrafiyasında tranzit imkanları genişlənəcək.

Zəngəzur dəhlizinin (TRIPP marşrutu) yaradılması da daxil olmaqla, kommunikasiyaların blokdan çıxarılması Ermənistan üçün həyati əhəmiyyət daşıyır. Bu ölkə 30 il ərzində işğalçılıq siyasətinin girovluğunda qalıb və əslində, dalan vəziyyətə düşüb. Hazırda Ermənistanın geniş dünyaya çıxışı yalnız dar Lars keçid məntəqəsi və İran üzərindəndir. Lars keçid məntəqəsi daşımalar üçün optimal marşrut sayıla bilməz. Çünki xüsusilə də qış aylarında buradakı dağ silsilələrindən keçmək mümkünsüz hala gəlir və keçid bağlanır. Həmçinin yenə də geosiyasi amillərə və infrastruktur məhdudluğuna görə İran üzərindən keçən yollar da əlverişli deyil. Kommunikasiyaların blokdan çıxarılması ilə Ermənistanın Azərbaycan və Türkiyə ilə onilliklər ərzində bağlı qalan sərhədləri açılacaq və bu ölkənin Avropaya asan çıxışı təmin olunacaq.

Bütövlükdə, kommunikasiyaların blokdan çıxarılması optimal regional bağlantını təmin edəcək. O cümlədən Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq. Qeyd edək ki, respublikamızın ərazisində Şimal - Cənub marşrutu ilə Orta Dəhlizin bağlantısı təmin edilib. Beləliklə, İran və Rusiya da yeni imkanlardan faydalana biləcəklər.

Azərbaycan məhsullarının Ermənistana ixracına başlamaqla və öz ərazisindən qonşu dövlətə tranzit yüklərinin daşınmasına şərait yaratmaqla sülh prosesinə, etimad quruculuğuna və Vaşinqton razılaşmasına sadiqliyini açıq şəkildə nümayiş etdirir. Bəs Ermənistan Ağ Evdə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən ötrü praktiki müstəvidə hansı addımları atır?

*Mübariz FEYİZLİ*

# Vətənpərvər gənclik qalib Azərbaycanın etibarlı gələcəyidir










Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatı tərəfindən 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə "Zəfər konsepsiyası və Azərbaycançılıq ideologiyası kontekstində müasir gəncliyin prioritet vəzifələri" mövzusunda tədbir və "Qış məktəbi"nin bağlanış mərasimi keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Azərbaycanda gənclər siyasəti barədə videoçarx nümayiş etdirilib.

Tədbirdə Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılov, Milli Məclisin deputatı Könül Nurullayeva, Milli Məclisin deputatı, YAP Təftiş Komissiyasının üzvü Naqif Həmzəyev, YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli, partiyanın Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov və başqaları çıxış ediblər.






Çıxışlarda vurğulanıb ki, 2 fevral - Azərbaycan Gəncləri Günü Ulu Öndər Heydər Əliyevin gənclərə hədiyyəsi, yüksək diqqət və qayğısının bariz nümunəsidir. Qeyd olunub ki, Ümummilli Lider tərəfindən 1 fevral 1997-ci il tarixində imzalanmış Sərəncama əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü kimi təntənəli şəkildə qeyd edilməyə başlanıb ki, bu da Azərbaycan gəncliyinə verilən yüksək dəyərin göstəricisidir.

Natiqlər Ulu Öndər Heydər Əliyevin mənəvi mirası olan azərbaycançılıq ideologiyası əsasında vətənpərvərlik ruhunda yetişən və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda böyük rəşadət göstərmiş gənclərin qarşısında duran başlıca vəzifələrdən bəhs ediblər. Qeyd olunub ki, vətənpərvər gənclik qalib Azərbaycanın etibarlı gələcəyidir.

Çıxışlardan sonra YAP Nizami rayon təşkilatının 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təşkil etdiyi "Qış məktəbi"nin bağlanış mərasimi olub. Yanvar ayının 26-dan 30-dək keçirilmiş "Qış məktəbi" haqqında videoçarxın nümayişindən sonra gənclər adından rayon təşkilatının könüllüsü Aytac Şahverənli, "Qış məktəbi"nin könüllü iştirakçısı, qardaş Türkiyə Respublikasının hakim Ədalət və İnkişaf Partiyasının Gənclik qollarının üzvü Can Yücel təəssüratlarını bölüşüblər.

Daha sonra Nizami rayonunun ictimai və mədəni həyatında fəallığına görə bir qrup gənc Nizami Rayon İcra Hakimiyyətinin fəxri fərmanları, YAP Nizami rayon təşkilatının ictimai-siyasi həyatında fəallıqlarına görə bir qrup gənc fəxri fərmanlar, təşəkkürnamələr, eləcə də rayon təşkilatının könüllülük layihəsinin məzunları və "Qış məktəbi"ni uğurla başa vuran iştirakçılar sertifikatlar ilə təltif ediliblər.

Tədbirə Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə yekun vurulub.

# Bakı WUF13-ə hazırdır

## 10 ilin hesabatı, 10 ilin hədəfləri...

Artıq Azərbaycan bütün dünyada qlobal dialoq məkanı kimi qəbul olunur. Bu da onunla bağlıdır ki, ayrı-ayrı mötəbər beynəlxalq təşkilatlar ölkəmizdəki uzunmüddətli sabitliyi, cəmiyyətin tolerantlığını, möhkəm həmrəylik mühitini və əlbəttə ki, davamlı inkişafı nəzərə almaqla özlərinin mühüm tədbirlərinin Azərbaycanın ev sahibliyi ilə keçirilməsinə üstünlük verirlər. Beləliklə də, qlobal gündəliyin aktual məsələləri respublikamızda müzakirə olunaraq önəmli qərarlar qəbul olunur.

Böyük uğurla baş tutan COP29-dan sonra ölkəmiz daha bir qlobal tədbirə ev sahibliyi etməyə hazırlaşır. Söhbət 2026-cı il 17-22 may tarixində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasından (WUF13) gedir. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq.

### "Dostlar Qrupu"nun davamlı urbanizasiya və Yeni Şəhərsalma Gündəliyi ilə bağlı müzakirələri

BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən təmsil olunan BMT və Dövlət Şəhərsalma və Memarlıq Komitəsi tərəfindən təmsil olunan Azərbaycan hökuməti arasında imzalanan WUF13 ilə bağlı bütün təşkilati məsələləri ehtiva edən sazişə uyğun olaraq beynəlxalq tədbirə hazırlıq praktiki müstəviyə keçib. İndiki mərhələdə hazırlıqlar BMT ilə koordinasiyalı şəkildə aparılır. Bu günlərdə Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı mənzil-qərargahında BMT-nin Məskunlaşma Proqramı üzrə "Dostlar Qrupu"nun davamlı urbanizasiya və Yeni Şəhərsalma Gündəliyinə həsr olunmuş iclası keçirilib. Toplantıda "Dostlar Qrupu"nun həmsədrləri qismində Polşa və Zimbabvenin BMT yanında daimi nümayəndəlikləri, həmçinin Azərbaycanın BMT yanında nümayəndəliyinin və bir sıra üzv dövlətlərin diplomatları, təşkilat rəsmiləri və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Çıxışlarda forumun yalnız ev sahibi ölkə və ya UN-Habitat üçün deyil, bütün beynəlxalq ictimaiyyət üçün platforma olduğu vurğulanaraq üzv dövlətlər fəal iştiraka dəvət olunub. İclas sual-cavab formatında davam edib. Tədbirdə WUF13-ə hazırlıqlar diqqət mərkəzində olub. Görüşün əsas məqsədi yeni şəhərsalma gündəliyinin ortamüddətli icmalına hazırlıq prosesinin erkən mərhələdə müzakirəsi olub.

Tədbirdə Polşanın BMT yanında daimi nümayəndəsi Krzysztof Szczerski, "UN-Habitat"ın icraçı direktoru Anaklaudia Rossbax, Malavinin BMT yanında daimi nümayəndəsi, xanım Agnes Mari Cimbiri və Azərbaycanın Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin aparat rəhbərinin müavini, WUF13-ün Milli koordinatorunun müavini Gülşən Rzayeva çıxış ediblər.

### Qlobal mənzil böhranı əsas çağırışlardan biri kimi

Dəyişən dünyada şəhərsalma ilə bağlı meydana çıxan çağırışlar da davamlı olaraq yenilənir. Hökumətlər özlərinin şəhərsalma siyasətlərində bu amili mütləq qaydada nəzərə almalıdırlar. Toplantıdakı çıxışlarda UN-Habitat nümayəndələri üzv dövlətlərin milli hesabatlarının toplandığını, müxtəlif qurum və tərəfdaşlardan daxil olan məlumatların təhlil edildiyini bildiriblər. Qlobal mənzil böhranı əsas çağırış kimi önə çəkilib. Qeyd olunub ki, dünyada 1 milyarddan çox insan qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır və şəhər əhalisinin sürətli artımı fonunda mənzilə çıxış, əlçatanlıq və iqlimə davamlı yaşayış mühiti prioritet məsələ olaraq qalır.

WUF13-ün milli koordinatorunun müavini Gülşən Rzayeva forumun Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda ilk dəfə keçiriləcəyini vurğulayıb, Bakının bu qlobal platformaya ev sahibliyi etməsindən qürur duyduğunu bildirib.

G.Rzayeva qeyd edib ki, forum çərçivəsində mənzil məsələsi ayrıca sahə kimi deyil, şəhər ekosisteminin bütün istiqamətlərini birləşdirən əsas xətt kimi təqdim olunacaq. Müxtəlif ölkələrin praktiki təcrübələri və real həll yolları müzakirə ediləcək, tərəfdaşlıqlar qurulacaq və icra oluna bilən nəticələr hədəflənəcək.

### Bakıda yenə bir ilkə imza atılacaq

Məlumdur ki, Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə böyük təcrübə qazanan ölkədir. Respublikamız beynəlxalq birliyin etimadını yüksək məsuliyyət kimi qəbul edərək ev sahibliyi hüququnu üzərinə götürdüyü tədbirlərə ciddi hazırlıqlar görür və mütləq qaydada substantiv nəticələrin əldə olunmasını təmin edir. Ölkəmiz WUF13-ün hazırlıqlarına da eyni həssaslıqla yanaşır. G.Rzayeva bildirib ki, proqram çərçivəsində ilk dəfə dövlət və hökumət başçılarının iştirakı ilə liderlər sammiti keçiriləcək. Nazirlər səviyyəsində tam günlük, nəticəyönümlü görüş, regional məsləhətləşmələr, dəyirmi masalar və plenar sessiyalar da təşkil olunacaq. Altı yüksək səviyyəli tematik dialoqda qeyri-rəsmi yaşayış məntəqələri, böhran sonrası bərpa, iqlim və mənzil əlaqəsi, mənzilin iqtisadi rolu və maliyyələşdirmə modelləri kimi mövzular müzakirə ediləcək.

Təşkilati məsələlərə toxunan H. Rzayeva bildirib ki, əsas məkan kimi Bakı Olimpiya Stadionu seçilib və hazırlıq işləri sürətlə davam edir: "Təxminən 2500 könüllünün cəlb olunacağı könüllülər proqramı da formalaşdırılır. Forumun mühüm hissələrindən biri də təxminən 35 min kvadratmetr ərazini əhatə edəcək şəhər sərgisi olacaq. Burada ölkələrin təcrübələri və innovativ həlləri nümayiş etdiriləcək".




### Qeydiyyat müddəti uzadılıb

WUF13 çərçivəsində təşkil olunacaq tərəfdaş tədbirlərinə yüksək maraq olduğunu nəzərə alaraq, qeydiyyat müddəti uzadılıb. Müraciətlərin qəbulu üçün son tarix 2026-cı il fevralın 3-ü olaraq müəyyən edilib.

Şəhərsalma sahəsində beynəlxalq dialoq və əməkdaşlıq platforması olan WUF13 qurum və təşkilatlara forumun "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna uyğun tədbirlər təşkil etmək imkanı yaradır. Müraciətlər https://events.unhabitat.org/ vasitəsilə təqdim edilməlidir.

Tədbirlərin təşkili üçün müraciətlər 7 kateqoriya üzrə qəbul olunur: Şəbəkələşmə (Networking), Vahid BMT (One UN), Dayanıqlı İnkişaf Məqsədlərinin tətbiqi (SDGs in Action), Şəhər kinoteatrı (Urban Cinema), Şəhər Kitabxanası (Urban Library), Şəhərlərin Səsi (Voices from Cities) və WUF Akademiyası (WUF Academy).

Müraciət edən qurum və təşkilatlar ilkin mərhələdə "UN-Habitat"ın Qlobal Tədbir İdarəetmə Sistemi (GEMS) platforması üzərindən onlayn qaydada qeydiyyatdan keçməlidirlər.

Qeydiyyat prosesi tamamlandıqdan sonra istifadəçilər şəxsi paneldə yerləşən "Applications / Müraciətlər" bölməsinə daxil olaraq müvafiq kateqoriyalar üzrə tələblərlə tanış ola və müraciətlərini yekunlaşdıra bilərlər.

Qeyd edək ki, hər bir kateqoriya üzrə yalnız bir müraciət təqdim edilə bilər.

Forumun əsas və strateji mexanizmlərindən biri olan tərəfdaş tədbirləri dayanıqlı şəhər inkişafı sahəsində qabaqcıl təcrübələrin, innovativ yanaşmaların və praktik həll yollarının beynəlxalq səviyyədə təqdim olunmasına şərait yaradır. Bu tədbirlər vasitəsilə iştirakçılar şəhərsalma sahəsində bilik və təcrübə mübadiləsi aparmaq, institusional əməkdaşlıqlar qurmaq və qlobal şəhər gündəliyinə töhfə vermək imkanı əldə edirlər.

### BMT-dən yüksək qiymət

Azərbaycanın qlobal şəhərsalma forumuna hazırlıqları BMT səviyyəsində yüksək dəyərləndirilir. "Mən deyə bilərəm ki, Bakı WUF13-ə hazırdır. Azərbaycan tərəfindən üzv dövlətlərə təqdim edilmiş hesabat göstərir ki, bütün hazırlıq işləri yüksək səviyyədə aparılır. UN-Habitat yan tədbirlərə qeydiyyatları və iştirakları koordinasiya edir, artıq foruma iştirak üçün böyük maraq və tələb olduğu məlumdur. Bu, Bakıda şəhər problemlərini müzakirə etmək, praktiki təcrübələri, həll yollarını təqdim etmək və ekspert biliklərini paylaşmaq üçün beynəlxalq iştirakçılar üçün vacib platforma rolunu oynayacaq", - deyə BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbax vurğulayıb.

A.Rossbax bildirib ki, WUF13 öncəsi keçirilən iclaslar və müzakirələr qlobal miqyasda şəhər və urbanizasiya məsələlərinə həsr olunmuş önəmli bir gün kimi qiymətləndirilə bilər. Fikirlərinə davam edən icraçı direktor vurğulayıb: "Biz 2016-cı ildə qəbul edilmiş "Yeni Şəhərsalma Gündəliyi"ni nəzərdən keçiririk, artıq 10 ildir ki, bu gündəlik icra olunur. Qarşıdakı 10 il üçün yeni hədəfləri müəyyən etməliyik. Buradakı Nyu-York görüşündə üzv dövlətlərlə müzakirə etdiyimiz kimi, qarşıda çoxsaylı qlobal çağırışlar mövcuddur və şəhərlərin burada güclü rolu var. Mənzil məsələsi də bizim planımızda mühüm rol oynayır. Ötən il BMT daxilində iqlim, maliyyə və sosial inkişaf sahələrində əldə etdiyimiz nəticələr göstərdi ki, urbanizasiya, şəhərlər və yerli idarəetmə, eləcə də mənzil mərkəzi rol oynayır. Bu il Azərbaycanla birgə Ümumdünya Şəhər Forumunu (WUF13) təşkil etmək bizim üçün vacibdir".

*Mübariz ABDULLAYEV*

# Heydər Əliyev "Durun çıxın gedin!", - dedi



## "Boz kardinal"ın "kardinallıq" "azarı"... Yaxud Siz kimsiniz, R. Mehdiyev?

*Hidayət*

**əvvəli ötən sayımızda**

Uzun illər Dövlət Müşaviri xidmətinin kurasiyasında acınacaqlı din sahəsində çox iş görülməsinə, əvvəllər çox proseslərin, vəziyyətin sabitləşməsinə baxmayaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaranan gündən bu sahə Mehdiyevin "əmri" ilə bizdən çıxarılıb Humanitar siyasət məsələləri şöbəsinə verildi. O, anlamaq istəmirdi ki, milli siyasətlə din məsələləri ayrılmazdır, bir qurum tərəfindən "kurasiya" olunmalıdır. Dövlət Müşaviri xidməti ondan sonra da dini mərkəzlərlə, konfessiyalarla, icmalarla ardıcıl işlədi (başqa cür mümkün deyildi), Dövlət Komitəsi ilə heç bir əlaqə saxlamadı. Dövlət Komitəsinin rəhbərliyi isə bütün gücünü öz şəxsi maraqlarının reallaşmasına sərf etdi, vəziyyət getdikcə ağırlaşdı, son həddə çatdı, Ulu Öndərimizin ciddi tənqidindən, cənab Prezidentin iradlarından sonra Aparatın rəhbəri naəlac qalıb dövlət qurumunu bizim xidmətin baxımına verməyə məcbur oldu.

Hələ çoxunu saymadığım, fəaliyyətimə belə qərəzli, süni məhdudiyyətlər törətməkdə əsas məqsədi mənim işdən getməyim idi. Hələ 2001-ci ildə məni dəvət edib "şirin" sözlərini işə salandan sonra "məsləhət budur ki, Siz Ensiklopediyaya baş redaktor gedəsiniz..." - dedi. Mənim cavabım onun yadında qalmalı idi. "Mənim baş redaktorluq vaxtım "Gənclik" nəşriyyatında qaldı" - dedim - mən bura çağırılanda 92-ci il avqust ayının 1-i idi, şənbə günüydü.

Əbülfəz Elçibəy soruşdu: "Elə bu gündən başlaya bilərsiniz işləməyə?". Başladım, gecə evə qayıdanda başımdan bir fikir keçdi: "Hansı gün burdan çıxsam, evəcən piyada gedəcəyəm və sonra 1 həftə şəhəri payi-piyada gəzib dolaşacağam və hamının üzünə, gözlərinə düz baxacağam! İndi də o fikirdəyəm: nə vaxt bura lazım olmasam, gedəcəyəm, şəhəri payi-piyada gəzəcəyəm və hamının üzünə, gözünə düz baxacağam!".

Rəngi qızardı. Mən durub otağı tərk etdim. Ancaq bu da onun qərəzinin son cəhdi olmadı...

Mən bir dəfə də ad çəkmədən mətbuatda demişəm: bir qrup şəxs 10 il Ulu Öndərə mənim haqqımda aramsız olaraq uydurmalar, yalanlar, böhtanlar deyirdilər, şər atırdılar... Ulu Öndərimizin böyüklüyü həm də ondaydı ki, bir dəfə də olsun məndən soruşmadı: "Bu, nə məsələdir?" Ya "bunlar sizdən nə istəyirlər?". Yalnız bircə dəfə - o da Mehdiyevin və onun ən yaxın həndəvərindən 2 nəfərin təkidi ilə! Mənim başım çoxsahəli gündəlik işlərin icrası ilə birlikdə Dünya Azərbaycanlıların Birinci Qurultayının çağırılması ilə bağlı hazırlıq məsələlərinə qarışmışdı. Bu qurultayla bağlı bir az əvvəldən başlamaq istəyirəm: mən Prezident Aparatında işə başlayandan bu barədə düşünürdüm. Siyahımda olan 10 möhtəşəm tədbirdən biri bu idi. Prezident Əbülfəz Elçibəylə danışdım, müzakirə etdik, razılıq verdi. Hazırlıq üçün təşkilat komitəsinin yaradılması ilə bağlı Prezident fərmanının layihəsini hazırlayıb təqdim etdim və təxirəsalınmaz digər məsələlərin həlli ilə bağlı getdim Şimal-Qərb rayonlarına.

Balakəndə, Zaqatalada, Qaxda, Şəkidə, Oğuzda işlərimi görüb Qəbələyə gələndə elə rayonun sərhəddindəcə məni qarşılayan icra hakimiyyətinin başçısı salamlaşan kimi dedi: "Sizi təbrik edirəm. Əbülfəz Elçibəyin müavini oldunuz!". Təəccübləndim: "Başa düşmədim" - dedim. İcra hakimiyyətinin başçısı açıqladı: "Televiziya indicə məlumat verdi - Dünya Azərbaycanlılarının Birinci Qurultayı keçiriləcək. Təşkilat Komitəsinin sədri Elçibəydir, siz isə tək müavin. "Yenə təəccübləndim - axı, Prezident sədri olan təşkilat komitəsinin sədr müavini adətən Baş nazir olur..." Bakıya qayıdandan sonra təəccübümü Elçibəydən də gizlətmədim. O dedi: "O işi Sizdən yaxşı heç kəs görə bilməz".

İşə başladım. Xaricdəki diaspor təşkilatlarımız yenidən, dəqiqliklə öyrənilməsinə başlanıldı, hamısına mənim imzamla müraciət göndərildi, bir sözlə, gərəkli hazırlıq işlərinə sürətlə start verildi. Bir dəfə Elçibəyin sədrliyi ilə Təşkilat Komitəsinin geniş iclası da oldu... Hazırlığa azı 8-10 ay vaxt lazım idi. Lakin Prezidentin Mədəniyyət məsələləri üzrə müşaviri Nihad Çətinqaya (Humanitar siyasət məsələləri üzrə Dövlət müşaviri və şöbəsi ola-ola, bu ştata nə ehtiyac var idi?) iki ayağını bir başmağa geyib, cəmi bircə nəfər olan işçisiylə təkid eləyirdi ki, qurultay bir, uzaq başı iki ay sonra keçirilsin. Dövlət quruculuğundan, qarşıdakı qurultayın miqyasından və mahiyyətindən xəbərsiz olan bu adam Prezident Aparatına gələnəcən İstanbulda kiçik ticarətlə məşğul olmuşdu.

Qurultayın tez keçirilməsini elə hay-küyə salmışdı ki, Əbülfəz Elçibəy də, Pənah Hüseynov da məndən soruşdular: "Bu nə üçün belə tələsir?". Dedim: "Qurultayın miqyasını və mahiyyətini dərk etmir. Elə bilir İstanbulda, ya Bakıda bir qeyri-hökumət təşkilatının keçirdiyi, 15 gündən sonra unudulan tədbirlərdəndir".

Mənlə razılaşdılar. Hərtərəfli hazırlığımıza davam etdik. Xalq Cəbhəsi hakimiyyətdən gedəndən sonra da!

Ulu Öndər Prezident seçiləndən 3-4 ay sonra bu məsələni Ona məruzə etdim. Dedi: "Hələ tələsməyin". Sonrakı illərdə - müxtəlif vaxtlarda iki dəfə də məruzə etdim. Dedi: "Gözləyin". Sonra düşündüm: "Bəlkə də baş tutacaq tədbir deyil?". Siz deməyin, bu məsələdə də Ulu Öndərin müdrikliyinin, böyüklüyünün şahidi olacaqdım.

Prezidentin 2001-ci ilin yayında sərəncamıyla Dünya Azərbaycanlılarının Birinci Qurltayının çağırılması, həmin ilin oktyabrına təyin olundu. Təşkilat Komitəsi yaratmadı, hazırlıq işlərinin aparılması Aparata tapşırıldı. Mehdiyevin əmri ilə yaradılan işçi qrupuna özünü rəhbər təyin etdi, üzvləri isə Aparatın və Nazirlər Kabinetinin yüksək vəzifəli şəxslərindən bir qrupu.

İşçi qrupunun iki, ya üç dəfə toplantısı oldu, ümumi texniki məsələlərdən danışıldı, nümayəndələr hansı prinsiplərə görə seçilməlidir? Qurultayın gündəliyi, bölmə sessiyalarının mövzuları, maliyyə və sair kimi əsas mətləblər unuduldu. Əvəzinə, əcaib təklif verildi: "Qurultaya xaricdə fəaliyyət göstərən müxalifətyönlü təşkilatlara və ayrıca şəxslərə mandat verilməsin". Qəribədir, içi qrupunun bəzi üzvləri də bu təklifi dəstəklədilər. Dedim: "Bu qurultay yalnız iqtidaryönlülərin qurultayı deyil, bütün xalqın qurultayıdır! Və bu qurultay müxalifətyönlüləri də milli dövlətçiliyimiz, xalqımızın vahid maraqları ətrafında birləşdirməlidir!". Bu mövzu çox müzakirə olundu, işçi qrupunun toplantılarından da kənara çıxdı, kənarda da ya məni müdafiə etmirdilər, ya da...susurdular. Yalnız o vaxtlar ABŞ-dakı səfirimiz Hafiz Paşayev qətiyyətlə bildirdi: "Ya hamısına mandat verilməli, dəvət olunmalıdırlar, ya da heç biri!". Bu sözlər də mənə mənəvi dayaq oldu. Sonra bu məsələni Prezidentə məruzə etmək məcburiyyətində qaldım. Məni diqqətlə dinlədi:

- Siz əminsiniz ki, optimal variant budur? - soruşdu.

- Bəli, cənab Prezident, tamamilə əminəm, - cavab verdim.

- Onda tam sərbəstlik verin, qoyun özləri kimləri istəyirlər - seçsinlər - dedi.

Ancaq hazırlıq işləri günə, sutkaya sığmırdı. Amerikadan tutmuş, Avstraliyayadək qitələrdə - ölkələrdəki milli diaspor təşkilatları ilə, səfirlərimizlə əlaqələr saxlayır, qurultayın qayəsi, əsas mahiyyəti, təşkilatlarda nümayəndə seçiminin obyektiv aparılması və sair çoxsaylı vacib məsələlər barədə məsləhət verir, həm də müxtəlif yerlərdə vəziyyəti, əhval-ruhiyyəni öyrənirdim. Bakıdakı çoxsaylı təşkilat işləri də bir yandan...

Necə deyərlər, bu yerdə el sözü yada düşər - başımı qaşımağa vaxtım olmayanda da Mehdiyev və yaxın həndəvəri məni "unutmurdu". Əvvəla, bir daha vurğulayıram: Mehdiyev və yaxın həndəvəri 10 il Ulu Öndərə mənim haqqımda uydurduğu yalanlar, böhtanlar, həqiqətlə heç bir əlaqəsi olmayan şayiələr deyirdilər, hətta hakimiyyətin bəzi üzvlərini də bu "kampaniyaya" qoşmaq istəyirdilər, 4 nazir özləri bu barədə mənə məlumat verdilər və onlar əlbəttə, Mehdiyevin tapşırığına məhəl qoymamışdılar. Ancaq bir az öncə qeyd etdiyim kimi, Ulu Öndərin dahiliyi həm də ondaydı ki, bircə dəfə də olsun məndən soruşmadı - bunlar nə məsələdir, ya bunlar Sizdən nə istəyirlər? Bu dəfə isə Mehdiyevin və yaxın həndəvərinin təkidi ilə məni dəvət etmişdi. Otağa daxil oldum. Gördüm Ramiz Mehdiyev, Aparatın 2 şöbə müdiri əyləşiblər.

Prezident dedi:

- Bunlar deyirlər ki, Siz burda muxtariyyat yaradıbsınız, heç kəsi saymırsınız. Öz yaradıcılıq işlərinizlə məşğulsunuz...

"Heç kimi saymırsınız" sözlərində yəqin "Ramiz Mehdiyevi saymırsınız" nəzərdə tuturdu, "yaradıcılıq işləri"ndə isə Akademik Milli Dram Teatrında çox uğurla gedən "Bu dünyanın adamları" qəmli komediyamı.

Prezident çox açıq və çox aydın dedi.

Mən də çox konkret və çox aydın cavab verməli idim.

- Cənab Prezident, - söylədim - mən həmişə subardinasiyanı dəqiqliklə gözləməyə çalışıram. O məslələlərlə ki, Aparatın rəhbərinə müraciət olunmalıdır - edirəm.

Ancaq Aparatın rəhbəri adətən çox gec münasibət bildirir (mən iki-üç dəfə eyni məsələni xatırladandan sonra), ya da heç bildirmir. Milli siyasətlə, xüsusilə, millətlərarası münasibətlərlə və dinlə məşğul olmaq isə belə etinasızlığı qəbul etmir. Bu sahənin biliciləri əbəs yerə demirlər ki, milli siyasətlə, dini qurumlarla məşğul olanların işi mina təmizləyənlərin işi kimidir, bir az ehtiyatsızlıq və ya operativsizlik fəlakətlər törədə bilər. Ona görə də münasibət bildirilməyən məsələlərimi özüm həll edirəm. Təvazökarlıqdan uzaq olmasın - hələ indiyəcən qərarlarımda yanılmamışam. Nəyi səhv etmişəmsə, qoyun desinlər. O ki qaldı yaradıcılıq məsələlərinə - təəssüf edirəm ki, siyasi vəzifədə çalışmağa başlayandan sonra bir sətir də bədii, ya publisistik yazı yazmamışam. Yenə deyirəm təəssüf edirəm. Buna sadəcə vaxtım olmayıb. Nəşriyyatlar öz maddi maraqları üçün kitablarımı nəşr ediblər, ancaq o kitablarda nə varsa hamısı bu vəzifəyə gələndə qədər yazdıqlarım, əvvəlki kitablarımda nəşr olunmuş əsərlərimdir. Milli Akademik Dram Teatrında tamaşa qoyulan "Bu dünyanın adamları" qəmli komediyası da səksəninci illərin əvvəllərində yazılıb, Ermənistan Dövlət Təhlükəsizlik Komitəsi əsəri anti-sovet pyesi sayaraq səhnəyə qoyulmasını qadağan etdi, hətta mənim rəhbəri olduğum İrəvan Dövlət Azərbaycan Teatrında da! Milli Akademik Dram Teatrımız öz təşəbbüsü ilə əsəri səhnəyə çıxardı, xeyi vaxtdır səhnədədir, tamaşaların hamısı da - anşlaq.

Prezident məni diqqətlə dinləyirdi, sözümü yekunlaşdırmaq istəyəndə təbəssümlə, özü ilə danışırmış kimi soruşdu:

- O vaxt yazılan əsəri nə əcəb indi tamaşaya qoyublar?

Yenə üzündə xoş təbəssüm!

Sözümü bitirməyə çalışırdım:

- Cənab Prezident, mən bütün günü - səhər tezdən gecə yarıyadək (okeanın o tayı ilə telefon söhbətlərim gecələr olur) qurultayın hazırlığı işləri ilə məşğulam. Hələ buradakı çoxsaylı, çoxyönlü işləri demirəm. Görülən və görüləcək işlər günə sığmır. Bunlar isə...nələrlə məşğuldurlar...

Prezidentin xoş təbəssümü, mənim sözlərim, məsələnin belə müzakirəsinin yekunlaşması əlbəttə, Mehdiyevin ürəyincə deyildi, ümidi deyəcəyi cümləyə qalmışdı:

- Milli məsələlər üzrə Dövlət Müşaviri xidmətini Xalq Cəbhəsi yaratmışdı...

Onun sözünü kəsməyə məcbur oldum:

- Xeyr, Xalq Cəbhəsindən xeyli öncə, uzun illər sizin funksioneri olduğunuz Kommunist partiyası yaratmışdı. Bunu da bilmirsiniz?

Prezident əli ilə işarə etdi ki - bu məsələ bitdi. Sonra mənlə əlaqəsi olmayan tamam başqa məsələdən danışdı. Şöbə müdirlərindən biri bu mövzuda fikir söyləyəndə qətiyyən yerinə düşməyən bir ifadə işlətdi, Prezident çox əsəbiləşdi. Əvvəlcə ona ciddi irad tutdu, sonra - "Durun, çıxın gedin!" - deyərək hamını otaqdan qovdu. Mehdiyev xahiş etdi ki, qalsın, guya vacib bir məsələni təkidlə məruzə etmək istəyir. Əlbəttə, bu xahiş bizim yanımızda kabinetdən qovulmağını gizlətmək üçün idi.

Biz çıxdıq, o qaldı. Adətən bu şöbə müdirləri bir yerə gedəndə, hansısa kabinetə daxil olanda və yaxud kabinetdən çıxanda, öncə mənə yol verirdilər. Bu dəfə özlərini elə itirmişdilər ki, öncə kabinetdən qovulmağın səbəbkarı çıxdı qapıdan, sonra o biri. Lap "maraqlısı" o idi ki, qapıdan çıxıb köməkçinin otağına daxil olan kimi əvvəlcə soldakı qapıya tərəf addımlamaq istədi. Bu qapı isə yalnız Prezidentin istifadə etdiyi qapıydı və onun liftinə açılırdı. O biri müdir isə duruxdu, sonra sağ tərəfə - Prezidentin böyük qəbul otağına açılan qapıya tərəf addımladılar.

İş otağıma qayıtdım. Xeyli var-gəl edəedə, şkaflarda yan-yana düzülmüş çoxsaylı kitablarıma baxa-baxa düşündüm: "Bəlkə bunların əlindən çıxım-gedim? Bu kitabları qablaşdırmaq və aparmaq üçün nə qədər vaxt lazımdır? Bəs, qurultay? Axı, on bir ildir onun keçirilməsi arzusu ilə yaşayıram. Bəs, milli siyasətin, dinin, qaçqınların, xaricdə yaşayan soydaşların... çoxsaylı problemlərin həllinin başa çatdırılması?

Prezidentin xoş təbəssümü gözümün önündən getmirdi. Çalışdım heç nə olmamış kimi əyləşim və işləri davam edim. Belə də oldu: O gün də gecə yarıyadək işlədim.

Prezident o üçlüyün təxribat cəhdlərindən 4 gün sonra qurultaya hazırlıq məsələləri ilə bağlı ayrıca müşavirə keçirdi, iştirakçılar - ogünkü üçlük, bir də Prezidentin İşlər İdarəsinin müdiri və mən məruzə etdim. Mənim sözüm deyəsən bir az çox çəkdi - çoxsaylı vacib məsələlərlə yanaşı, M.F.Axundzadə nəslindən kim qalıbsa, qurultaya dəvət olunmasından danışdım. Dedim: "Mirzə Fətəlinin anadan olmasının 150 illiyində Sizin təşəbbüsünüzlə o vaxtlar Yaponiyada yaşayan kötücəsinin yubileyə gəlməsi həmişə xoş xatırlanır. İndi isə o nəsildən kimsə tapılmır.

**davamı növbəti saylarımızda**

# Sülh gündəliyinin enerji platforması

## "Zəngəzur" xətti Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizinin tərkib hissəsinə çevrilir

Azərbaycan və Türkiyə uzun illərdir ki, regionun geoiqtisadi mənzərəsini formalaşdıran, sülhə, sabitliyə və davamlı inkişafa töhfə verən, beynəlxalq enerji təhlükəsizliyində birgə addımlayan strateji müttəfiq dövlətlər kimi təşəbbüskarlığı ilə seçilir. İki qardaş ölkə arasında iqtisadi münasibətlər tarixdə misli görünməmiş səviyyəyə yüksələrək enerji layihələrinin hərəkətverici qüvvəsinə çevrilib. Neft sazişləri ilə başlayan mükəmməl əməkdaşlıq platforması regional və qlobal ixrac marşrutlarının ərsəyə gəlməsinə, TANAP, TAP kimi nəhəng arteriyaların işə düşməsinə səbəb olub. Eyni zamanda, Azərbaycan Türkiyənin ən böyük enerji təchizatçısı kimi çıxış edərək qardaş ölkənin enerji sektoruna və iqtisadiyyatına ən böyük investisiya yatırıb, infrastruktur ekosistemini tamamilə yeniləşdirib.

**Yeni geosiyasi reallıqlar fonunda dəyişən enerji xəritəsi**

Azərbaycan və Türkiyə müasir enerji gündəliyinin yeni səhifələrini yazır. Ötən 30 illik sarsılmaz enerji tərəfdaşlığı hazırda dəyişən geosiyasi reallıqlar fonunda regional və qlobal miqyasda iki dövlətin mövqelərini gücləndirən yeni mərhələyə daxil olub. Belə ki, "İğdır-Naxçıvan" qaz kəmərinin istifadəyə verilməsi, TPAO şirkətinin "Şəfəq-Asiman" layihəsinə qoşulması, Suriyaya qaz tədarükünə başlanması, "yaşıl enerji interkonnektor"larının qurulması və Zəngəzur dəhlizi, yaxud "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzrə razılaşmaların əldə olunması enerji əlaqələrimizin yeni, daha güclü səhifəsini yazır. Zəngəzur dəhlizinin açılması və dəhlizin davamı olaraq Naxçıvan-Qars dəmir yolunun tikintisi bu transmilli nəhəng nəqliyyat arteriyasının qollarını daha da genişləndirəcək, Azərbaycan və Türkiyə beynəlxalq nəqliyyat dəhlizlərinin Orta-Mərkəzi xəttinə çevriləcək.

Zəngəzur dəhlizi, həmçinin Xəzər dənizi və Mərkəzi Asiyadan həm karbohidrogenlərin, həm də enerjinin Naxçıvan üzərindən Türkiyə və beynəlxalq bazarlara çatdırılmasını təmin edəcək strateji marşrut kimi də mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdə Naxçıvanla Türkiyə arasında elektrik bağlantılarının yaradılması da bu ümumi strategiyanın tərkib hissəsidir. Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə birbaşa əlaqəsinin bərpası bu prosesin mühüm tamamlayıcı elementidir. Bu enerji proqramına əsasən, Naxçıvan Muxtar Respublikasının ölkənin əsas elektrik enerji sistemi ilə birləşdirilməsi, eyni zamanda, Azərbaycan-Türkiyə-Avropa beynəlxalq enerji dəhlizinin formalaşdırılması məqsədilə Zəngəzur xəttinin tikintisinə başlanılıb. "AzərEnerji" tərəfindən Cəbrayıldan Ağbəndə qədər 74 km, paralel olaraq isə Naxçıvandan Ordubad sərhədinədək 105 km uzunluğunda, ikidövrəli və 1000 meqavat yükötürmə qabiliyyətinə malik 330 kilovoltluq yüksək gərginlikli ötürmə xətti inşa olunur. Araz çayı boyunca bir sıra ərazilərdə isə dağlıq və qayalı massivlərin yarılmasından keçən xətt son dərəcə mürəkkəb relyef və ağır iqlim şəraitində çəkilir.




**Naxçıvan vahid enerji sisteminə inteqrasiya olunacaq**

Layihənin növbəti mərhələsində Zəngəzur dəhlizini keçməklə 44 km məsafədə əlavə ötürmə xətti inşa ediləcək və həmin xətt gələcəkdə Ağbənd və Ordubad istiqamətində çəkilən xəttə birləşdiriləcək. Eyni zamanda, Naxçıvan şəhərində yeni 330 kV-luq yarımstansiya tikiləcək. Artıq bu məqsədlə 49 hektar torpaq sahəsi ayrılıb və mobilizasiya işlərinə start verilib.

Həmçinin, Azərbaycan-Türkiyə-Avropa enerji dəhlizi layihəsinin davamı olaraq daha bir strateji mərhələnin icrası planlaşdırılır. Belə ki, 230 km məsafədə Naxçıvandan Türkiyəyə 400 kV-luq ötürmə xəttinin çəkilməsi və ölkə tarixində ilk dəfə olaraq 400 kV gərginlik sinfi üzrə çevirici yarımstansiyanın tikilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasının ölkənin vahid enerji sisteminə tam inteqrasiyası, muxtar respublikanın tezlik tənzimlənməsində xarici ölkədən asılılığının aradan qaldırılması, həmçinin Avropa enerji bazarlarına çıxış imkanlarının yaradılması baxımından bu layihə strateji əhəmiyyət daşıyır.

Beləliklə, bu enerji tranziti şəbəkəsi möhkəm və etibarlı enerji bağlantısı olmaqla, elektrik enerjisi sisteminin vahid və dayanıqlı işləməsinə şərait yaradacaq. Türkiyə üzərindən Avropaya uzanan enerji xətlərinin səmərəliliyi artaraq regional enerji təhlükəsizliyini gücləndirəcək.

**TRIPP nəqliyyat habı enerji dəhlizi ilə birləşərək nəhəng infrastruktur landşaftını formalaşdıracaq**

Azərbaycan-Türkiyə əməkdaşlığının yeni şaxələrindən biri də "yaşıl enerji" ittifaqında iki qardaşın xüsusi fəal təşəbbüskarlığının artmasıdır. Azərbaycan dövlətinin müəyyən etdiyi bərpaolunan enerji strategiyasının gerçəkləşməsində Türkiyə şirkətləri yaxından iştirak edir, ələxsus da azad edilmiş ərazilərdə hidrogen və yaşıl resursların istehsalı və emalı proseslərində müştərək addımlar atır. Türk şirkətlərinin Kəlbəcər və Laçında həyata keçirdiyi ümumi gücü 13 MVt olan 4 kiçik su elektrik stansiyası, həmçinin Kəlbəcərdə 240 MVt gücündə külək elektrik stansiyası layihələri "yaşıl enerji" istehsalında əhəmiyyətli rol oynayır. Həmçinin, Naxçıvandakı bərpaolunan enerjinin istehsalı və istismarı, ötürülməsi proseslərində də Türkiyə investorları aparıcı yer tutmaqla enerji tənzimlənməsində əməkdaşlığı təşviq etməkdədir. Qardaş ölkənin nəhəng enerjisi holdinqi olan "Nordex Qrup" Azərbaycanın quruda və dənizdə külək enerjisi istehsalı və ixracı layihələrinə qoşulmaq barədə niyyətini bildirib.

Azərbaycanın bərpaolunan enerji resursları regionun nəhəng "yaşıl enerji" habı olan Xəzər-Qara dəniz-Avropa xətti ilə Qərbə nəql ediləcək ki, nəticədə ölkəmiz Cənubi Qafqazda elektrik enerjisinin ötürülməsi baxımından əsas qovşağa çeviriləcək. Bu, Azərbaycanın həm geosiyasi çəkisinin artması, həm də enerji texnologiyaları və infrastrukturuna əsaslanan yeni iqtisadi dividendlər qazandırmasını da təmin edəcək.

Ümumilikdə, bölgədə reallaşan enerji-kommunikasiya xətləri Azərbaycanın sülh gündəliyinin tərkib hissəsi olmaqla, Zəngəzur dəhlizi - TRIPP layihəsinin çoxfunksiyalı işini təmin edəcək. TRIPP nəqliyyat habı ilə Azərbaycan-Türkiyə-Avropa beynəlxalq enerji dəhlizi nəhəng infrastruktur landşaftını formalaşdıracaq.

*E.CƏFƏRLİ*

# Türkün gücü daha da möhkəmlənir...

## Türkiyə və Özbəkistan prezidentləri mühüm mesajlar veriblər

Qloballaşan dünyada türk dövlətlərinin birliyinin daha da güclənməsi bir zərurətdir. Bu baxımdan, Türk Dövlətləri Təşkilatı çərçivəsində siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində əsaslı addımlar atılır. Eyni zamanda, türk dövlətləri ikitərəfli münasibətlər kontekstində əməkdaşlığı genişləndirir. Bu ölkələrin əksəriyyəti qarşılıqlı əlaqələri strateji səviyyəyə yüksəltməkdədir.

Bütün bunların fonunda türk dünyasının böyük dövlətləri olan Türkiyə ilə Özbəkistanın əlaqələri də məmnunluq doğurur. Belə ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Türkiyəyə rəsmi səfəri zamanı aparılan müzakirələr və imzalanan sazişlər bunun göstəricisidir. Qeyd edək ki, ikitərəfli və nümayəndə heyətləri səviyyəsində keçirilən görüşlər və Türkiyə-Özbəkistan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının IV toplantısından sonra iki ölkə arasında müxtəlif müqavilələrin imzalanması mərasimi olub. İki ölkənin liderləri "Türkiyə-Özbəkistan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 4-cü iclasının Birgə Bəyannaməsi"ni və "Türkiyə Respublikası ilə Özbəkistan Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin əməkdaşlıq mexanizmləri haqqında Qərar"ı imzalayıblar. Sonra müxtəlif sahələr üzrə sənədlər imzalanıb.

### Ərdoğan: TDT çərçivəsində də sıx əməkdaşlıq edirik

Prezidentlərin mətbuat konfransında Ərdoğan bu il həm də 1996-cı ildə imzalanmış Əbədi Dostluq və Əməkdaşlıq Müqaviləsinin 30-cu ildönümünün qeyd olunduğunu bildirərək, qardaş Özbəkistanın Mirziyoyevin bacarıqlı və güclü rəhbərliyi altında dövlət ənənələri ilə Mərkəzi Asiyanın regional inteqrasiyasında öncül rol oynadığını qeyd edib. Ərdoğan Türkiyə ilə Özbəkistan arasında həmrəyliyi gücləndirməklə yanaşı, həmrəyliyi davamlı olaraq hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatdırdıqlarını ifadə edərək, mübadilə edilən razılaşmaların gələcək üçün yol xəritəsini müəyyən etdiyini bildirib. O, qeyd edib ki, hər iki ölkənin qurumları siyasi, iqtisadi, mədəni, insani və regional sahələrdə bütün ortaq məqsədlərə nail olmaq üçün birlikdə çalışırlar.

Xarici işlər nazirlərinin həmsədrlik etdiyi Birgə Strateji Planlaşdırma Qrupunun bu yaxınlarda görüşdüyünü xatırladan Ərdoğan xarici işlər, daxili işlər, müdafiə nazirləri ilə kəşfiyyat qurumlarının rəhbərlərindən ibarət 4+4 mexanizminin ilk iclasını Ankarada keçirdiklərini də söyləyib. "Son illərdə ticarət, müdafiə sənayesi, təhsil və mədəniyyət kimi sahələrdə bir çox layihələr həyata keçirmişik. Son 10 ildə ikitərəfli ticarət həcmimizi 3 dəfə artırmışıq. İnanıram ki, 5 milyard dollarlıq yeni hədəfimizə tezliklə çatacağıq. Türkiyə olaraq həm Özbəkistanın, həm də ata-baba yurdumuz olan Orta Asiyanın çiçəklənməsinə töhfə vermək üçün əlimizdən gələni etməyə qərarlıyıq", - deyə o, vurğulayıb.

Türk Dövlətləri Təşkilatı çərçivəsində Özbəkistanla sıx əməkdaşlıq etdiklərini bildirən Ərdoğan, ötən ilin noyabrında Səmərqənddə keçirilən YUNESKO-nun 43-cü Baş Konfransında 15 dekabrın Dünya Türk Dili Ailəsi Günü elan edilməsində Mirziyoyevin mühüm rolunu qeyd edib. Ərdoğan sözlərinə belə davam edib: "İnsanlığımızın sınaqdan keçirildiyi bir vaxtda Prezidentin simasında özbək bacı və qardaşlarımı məzlumların yanında göstərdikləri cəsarətə görə ürəkdən təbrik edirəm. Qardaşım Mirziyoyevin Özbəkistanda fələstinlilər üçün sosial xidmətlər göstərmək üçün fond yaratmaq qərarını da yüksək qiymətləndirirəm. Təkcə qəlbimiz, dilimiz deyil, kədərimiz, dərdimiz birdir. Bunu üç il əvvəl mübarək Ramazan ayında yaşadıq. 53 mindən çox insanın həyatını itirdiyi 6 fevral zəlzələsindən sonra bizə yardım edən ilk ölkələrdən biri Özbəkistan oldu. Özbək qardaşlarımızın zəlzələ xəbərini eşidən kimi millətimiz üçün necə səfərbər olduqlarını çox yaxşı bilirik".

Türk Dövlətləri Təşkilatının 2023-cü ildə keçirilən fövqəladə Zirvə toplantısında Özbəkistanın təklifi ilə fevralın 6-nın "Fəlakət Qurbanlarını Anma və Həmrəylik Günü" elan edildiyini xatırladan Ərdoğan, Özbəkistanın bununla da kifayətlənmədiyini, 308 evin tikintisini öz üzərinə götürdüyünü bildirib.




### Hatayda "Özbəkistan" məhəlləsinin açılışı olub

Sonra liderlər Hatayda "Özbəkistan" məhəlləsinin onlayn formatda açılışını edib. Prezidentlər, həmçinin bir qrup sakinə evlərin açarlarını təqdim ediblər. Eyni zamanda, İstanbulda özbək məktəbinin onlayn formatda təməli atılıb.

Xatırladaq ki, 31 avqust 1991-ci ildə müstəqilliyini elan edən Özbəkistanı tanıyan ilk ölkə Türkiyə olub. Ölkələr arasında diplomatik əlaqələr 4 mart 1992-ci ildə qurulub. Özbəkistanda səfirlik açan ilk ölkə də Türkiyə olub. Türkiyənin Daşkənddəki səfirliyi 1992-ci ilin aprelində, Özbəkistanın Ankaradakı səfirliyi isə 1993-cü ilin yanvarında fəaliyyətə başlayıb.

Bütövlükdə, bu il diplomatik münasibətlərin qurulmasının 34-cü ildönümünü qeyd edən Özbəkistan və Türkiyənin münasibətləri daha da güclənir. İki ölkə arasında əlaqələrin genişlənməsi isə ümumilikdə, türk dünyasının güclənməsinə də əhəmiyyətli təsir göstərir.

***Nardar BAYRAMLI***

### Mirziyoyev: Türkiyə dünyanın yeni geosiyasi güc mərkəzlərindən birinə çevrilir

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə Türkiyənin qlobal miqyasda getdikcə daha çox nüfuz qazandığını bildirərək, "Ölkəniz, sözün əsl mənasında, dünyanın yeni geosiyasi güc mərkəzlərindən birinə çevrilir" deyib. Ş.Mirziyoyev Türkiyənin təkcə müsəlman dünyasında deyil, qlobal miqyasda hər sahədə artan nüfuz qazandığını və dəyərli uğurlar əldə etdiyini vurğulayaraq, "Türk Əsri" strateji proqramının sistemli şəkildə həyata keçirildiyini söyləyib. Bu vəziyyətin Özbəkistanı sevindirdiyini dilə gətirən Prezident bu nailiyyətlərə görə Türkiyəni özbək xalqı və şəxsən öz adından təbrik edib.

Ş.Mirziyoyev Türkiyə ilə Özbəkistanın eyni dili, qəlbi və niyyəti paylaşdıqlarını, problem yarandıqda nəticə əldə etmək üçün birlikdə çalışdıqlarını ifadə edərək, "Həqiqətən də eyni ana dilini və müqəddəs dini paylaşdığımız üçün bizi qardaş türk xalqından heç bir məsafə ayıra bilməz" söyləyib. İki ölkənin bütün hədəflərinin reallaşmasının həmrəylik, birlik, əməkdaşlıq nəticəsində olduğunu deyən Mirziyoyev, Türkiyə və Özbəkistanın son illərdə çox böyük işlər gördüyünü, lakin hədəflərinin daha yüksək olduğunu bildirib. O, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının IV toplantısı çərçivəsində səmərəli müzakirələr apardıqlarını, İstanbulda Özbəkistan məktəbinin təməlqoyma mərasiminin və Hatayda tikilən yaşayış binalarının açılışının əlaqələrin tarixində silinməz iz qoyacağını da əlavə edib.

Mirziyoyev İstanbulda ilk özbək məktəbinin tikintisinin son illərdə iki ölkə arasında təhsil sahəsində əlaqələrin keyfiyyət baxımından yeni səviyyəyə yüksəldiyinin əyani göstəricisi olduğunu bildirib. O, Daşkənddə Beynəlxalq Türk Dövlətləri Universitetini açdıqlarını, Əlişir Nəvai Universitetində Yunus Əmrə İnstitutunun fəaliyyətə başladığını, Daşkənddə mövcud türk məktəbinin genişləndirilməsi üçün əlavə torpaq sahəsinin ayrılması barədə razılığa gəldiklərini də xatırladıb.

# Rusiya və Ukrayna liderləri görüşəcəkmi?

## Putin Zelenskini Moskvaya, Zelenski isə onu Kiyevə dəvət edir...

Rusiya-Ukrayna müharibəsi ilə bağlı sülh prosesi beynəlxalq müstəvidə əsas müzakirələrdən biridir. ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkof Ukrayna ilə Rusiya arasında sülh sazişinin tezliklə bağlanacağını bildirib. "Bizim hazırda başa çatmaq üzrə olan təhlükəsizlik protokolu və rifah sazişlərimiz var. Düşünürəm ki, Ukrayna xalqı indi ümidlidir və təhlükəsiz sülh sazişi imzalayacağımızı gözləyir", - deyə Uitkof əlavə edib.

### Tramp Putindən xahiş edib

ABŞ Prezidenti Donald Tramp isə Rusiya Prezidenti Vladimir Putindən Ukraynanın paytaxtı Kiyevi 1 həftə ərzində hədəfə almamağı xahiş etdiyini açıqlayıb. O, belə bir xahişi bölgədəki soyuq hava şəraiti əlaqədar etdiyini bildirib. "Mən şəxsən Prezident Putindən bu kəskin soyuqlar zamanı Kiyevə, şəhər və qəsəbələrə 1 həftə atəş açmamağı xahiş etdim", - deyə Tramp Ağ Evdə keçirilən Nazirlər Kabinetinin iclasında bildirib. Dövlət başçısı əlavə edib ki, Putin buna razıdır. Ukrayna Prezidenti Zelenski isə buna görə Trampa təşəkkür edib.

"Danışıqlar qrupumuz demək olar hər saat ünsiyyətdədir. Biz tərəfdaşlarımızla - Amerika tərəfi ilə - həqiqətən effektiv formatlar və həqiqətən ehtiyac duyduğumuz nəticələr barədə ünsiyyət qururuq", - deyən Zelenski əlavə edib ki, Ukrayna görüşlərə, həll yollarına hazırdır və tərəfdaşların mümkün qədər effektiv olmasını gözləyir. "Avropada, Amerikada, hər yerdə. Davamlı sülh üçün məhz bu lazımdır. Sülhə nail olmaq və təhlükəsizliyi təmin etmək üçün hər fürsəti qiymətləndiririk. Bu müddət ərzində enerji sektoruna hücumları dayandırmaq səylərinə görə, Amerika tərəfinə təşəkkür edirəm və ümid edirəm ki, Amerika bunu təmin edə biləcək" - deyə Zelenski əlavə edib.

### "Ukrayna bu halda cavab tədbirləri görməyəcək"

Dövlət başçısı qeyd edib ki, Rusiya Ukraynaya zərbə endirməsə, Ukrayna da cavab tədbirləri görməyəcək: "Vəssalam, biz bu prinsipi əvvəllər müzakirə etmişik. Bu, bir fürsətdir, razılaşma deyil". Zelenski əlavə edib ki, hələlik rəsmi atəşkəs razılaşması yoxdur. O, iddia edib ki, əgər Rusiya Amerikanın "siqnalını" Ukraynanın etdiyi kimi eşidibsə, onda müəyyən bir nəticə ortaya çıxacaq və bu, nəzərəçarpan olacaq. "Burada heç bir sirr yoxdur. Bu məsələ ilə bağlı bizimlə Rusiya arasında birbaşa dialoq və ya birbaşa razılaşmalar olmayıb", - deyə Ukrayna Prezidenti əlavə edib. Zelenski daha sonra bildirib: "Əgər Rusiya enerji sektorumuzu, istər istehsal, istərsə də başqa şəkildə hədəfə almasa, biz onların müvafiq sektoruna zərbə endirməyəcəyik. Düşünürəm ki, danışıqların vasitəçisi olan ABŞ-ın ümid etdiyi cavab budur. Biz həmişə Amerikanın bütün rasional təşəbbüslərinə, gərginliyin azaldılması üçün hər hansı real təkliflərə və sairə məsələlərə dəstəyimizi nümayiş etdiririk".

Ukrayna lideri hesab edir ki, üçtərəfli dialoq da gərginliyin azaldılmasına aparan yoldur, lakin bu cür addımların nəticəsi başqa bir məsələdir: "Bu, bir ildən bir az əvvəl seçdiyimiz siyasətdir. Biz gərginliyin azaldılması üzrə bütün real addımları dəstəkləyirik və bunu ardıcıl olaraq nümayiş etdirmişik ki, heç kim Ukraynanı sülhə doğru irəliləyişi ləngitməkdə ittiham edə bilməsin. Lakin o vaxt Rusiyadan mənfi cavablar var idi. İndi necə olacağını görəcəyik".



### Lavrov: Yalnız real təklifləri nəzərdən keçirməyə hazırıq

Bu arada Rusiyanın xarici işlər naziri Sergey Lavrov Türkiyənin TGRT kanalına və "Türkiye" qəzetinə müsahibəsində deyib ki, Moskva Ukrayna üzrə nizamlanma çərçivəsində təhlükəsizlik zəmanətləri ilə bağlı yalnız real təklifləri nəzərdən keçirməyə hazırdır, ictimai bəyanatlara və siyasi oyunlara əsaslanmaq niyyətində deyil. Lavrov xatırladıb ki, təhlükəsizlik zəmanətləri 2022-ci ilin aprelində İstanbulda artıq razılaşdırılmışdı. Həmin razılaşmalar təhlükəsizliyin "kollektiv və bölünməz xarakterini", o cümlədən həm Rusiya Federasiyasının, həm də Ukraynanın yerləşdiyi bütün regionun təhlükəsizliyini nəzərdə tutur.

Nəzərə alaq ki, Ukrayna Prezidenti Volodimir Zelenski ərazi məsələləri və Zaporojye AES ilə bağlı Rusiya Prezidenti Vladimir Putinlə şəxsən görüşməyə hazırdır. Ukrayna xarici işlər naziri Andrey Sibiqa sülh prosesində ən problemli 2 məsələnin qaldığını xatırladıb: ərazi məsələləri və Zaporojye AES üzərində nəzarət. "Prezidentimiz Putinlə görüşməyə və bu məsələləri dəqiq həll etmək üçün onları müzakirə etməyə hazırdır. Paralel yollar yaratmamalıyıq. Xarici İşlər Nazirliyinin nümayəndələri də daxil olmaqla danışıqlar qrupu yaradılıb. Əlavə yolların yaradılması doğru vaxt deyil və lazım deyil", - deyə ukraynalı nazir qeyd edib. Onun sözlərinə görə, danışıqlar qrupu artıq atəşkəs parametrlərini, monitorinqi və atəşkəsin yoxlanılmasını müzakirə ediblər.

> **Ukrayna görüşlərə, həll yollarına hazırdır və tərəfdaşların mümkün qədər effektiv olmasını gözləyir. "Avropada, Amerikada, hər yerdə. Davamlı sülh üçün məhz bu lazımdır. Sülhə nail olmaq və təhlükəsizliyi təmin etmək üçün hər fürsəti qiymətləndiririk. Bu müddət ərzində enerji sektoruna hücumları dayandırmaq səylərinə görə, Amerika tərəfinə təşəkkür edirəm və ümid edirəm ki, Amerika bunu təmin edə biləcək" - deyə Zelenski əlavə edib**

### Moskva Zelenskinin təhlükəsizliyini təmin edəcəyini bildirir

Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov isə bəyan edib ki, bu cür potensial görüşlər diqqətlə hazırlanmalı və praktik nəticəyə yönəlməlidir. O xatırladıb ki, Rusiya Prezidenti əvvəllər dəfələrlə dialoqa hazır olduğunu bəyan edib: "Əgər Zelenski doğrudan da görüşə hazırdırsa, Rusiya tərəfi onu Moskvaya dəvət edir. Bununla yanaşı, onun təhlükəsizliyini və işləmək üçün zəruri şəraiti təmin edəcəyik".

Lakin Volodimir Zelenski Vladimir Putinlə Moskvada görüşmək ehtimalını qəti şəkildə rədd edib. Lakin o, Kreml rəhbərini Kiyevə dəvət edib. Ukrayna lideri bildirib: "Əlbəttə, mənim Moskvada Putin ilə görüşməyim mümkün deyil. Bu, Putin ilə Kiyevdə görüşməklə eynidir. Mən onu Kiyevə də dəvət edə bilərəm - qoy gəlsin. Sözsüz ki, əgər qərar verərsə, mən onu açıq şəkildə dəvət edirəm". O, Ukraynanın müharibənin sona çatması üçün real konstruktiv danışıqlar aparmaq, eləcə də məhsuldar ola biləcək görüş keçirmək istədiyini vurğulayıb: "Amma kimsə görüşmək istəmirsə və nədənsə bunu birbaşa deyə bilmirsə, onda Moskvaya bu dəvətnamələr göndərilir".

Zelenski Ukraynanın müharibənin sona çatmasına ciddi yanaşdığını bir daha təkrarlayıb. Buna görə də liderlər səviyyəsində görüş üçün istənilən real format uyğundur. "Bunun hansı nəticə verəcəyini bilmirəm. Amma şübhəsiz ki, bu gün baş verənlərdən daha böyük hadisə olacaq", - deyə o əlavə edib.

***N.BAYRAMLI***

# Brüssel "müstəqillik" arzusundadır

## Aİ özünün "nüvə çətiri"ni yaratmaq istəsə...

**ABŞ-dan kənar müdafiə sistemi - Fransa qitəni öz ətrafında birləşdirir?**

Avropanın hərbi güc potensialı Qərb kontingentinin ümumi təhlükəsizlik balansı ilə müqayisədə ciddi disproporsiya təşkil edir. Formal olaraq Qərb təhlükəsizlik arxitekturasının mühüm tərkib hissəsi sayılsa da, Avropa faktiki olaraq bu sistem daxilində ikinci dərəcəli rol oynayır. Bunun əsas səbəbi isə Qərbin əsas müdafiə rıçaqı hesab edilən NATO çərçivəsində real hərbi-siyasi qərarların verilməsinin və icrasının ABŞ-ın dominantlığı altında həyata keçirilməsidir. Avropa ölkələri isə əksər hallarda bu mexanizmdə icraçı və qismən maliyyə yükünü daşıyan tərəf kimi çıxış edir.

Paralel olaraq, müasir hərbi texnologiyalar və müdafiə mexanizmləri sahəsində də Avropanın geri qalması problemin dərinləşdiyini göstərir. Raketdən müdafiə sistemləri, strateji hava üstünlüyü, süni intellektə əsaslanan hərbi texnologiyalar və kiber təhlükəsizlik sahələrində ABŞ və digər böyük güclər Avropanı xeyli qabaqlayır. Məhz bu reallıqlar fonunda "Avropa ordusu", "müstəqil müdafiə sistemi" kimi anlayışlar son illərdə qitə siyasətində daha tez-tez səslənməyə başlayıb. Avropa artıq anlayır ki, formalaşmaqda olan yeni dünya nizamında böyük güc mərkəzlərinin maraqları üst-üstə düşməyə də bilər və bu halda təhlükəsizlik zəmanətləri sual altına düşür. Qrenlandiya ətrafında yaranan müzakirələr bu amilin real olduğunu açıq şəkildə nümayiş etdirdi.

### Nüvə faktoru və Avropanın təhlükəsizlik dilemması

Müasir qlobal təhlükəsizlik mühitində əsas hərbi təhdid amili kimi nüvə potensialı ön plana çıxır. Böyük güclər arasında balansı müəyyən edən əsas rıçaq məhz strateji nüvə silahlarıdır və bu kontekstdə Qərbin əsas dayağı dəyişməz olaraq qalır - bu, ABŞdır. Vaşinqton bu gün dünyada ən böyük nüvə başlığı arsenalına sahib dövlətlərdən biri kimi qlobal təhlükəsizlik proseslərinə faktiki dominantlıq edir.

Avropa İttifaqı ölkələri isə demək olar ki, nüvə silahına malik deyil və mövcud nüvə potensialı əsasən Fransa ilə məhdudlaşır. Bu isə qitənin ümumi müdafiə konsepsiyasını zəiflədir və onu ABŞ-ın nüvə çətiri altına sığınmağa məcbur edir. Belə bir vəziyyətdə Avropanın müstəqil qərarvermə imkanları avtomatik olaraq məhdudlaşır. Çünki strateji təhlükəsizlik məsələlərində son söz Vaşinqtonun əlində cəmlənir.

Almaniya daha çox ABŞ-la koordinasiyalı təhlükəsizlik modelinə üstünlük verir - bu da təsadüfi deyil. 15 mart 1991-ci ildə qüvvəyə minən Almaniyaya dair Yekun Razılaşma haqqında Müqavilənin üçüncü bəndinə əsasən, Almaniya Federativ Respublikası atom, bioloji və kimyəvi silahların istehsalından, saxlanmasından və utilizasiyasından imtina edib. 1991-ci ilin iyun ayının sonuna qədər SSRİ bütün hərbi nüvə komponentlərini keçmiş ADR ərazisindən çıxarıb. Lakin ABŞ-ın nüvə silahları NATO-nun potensial düşmənlərə qarşı strateji çəkindirmə kon-

### Fransanın "nüvə dominantlığı" arzusu...

sepsiyasının bir hissəsi olaraq keçmiş ADR ərazisində qalır. Təsdiqlənməmiş məlumatlara görə, Bühel aviabazasında 20-yə qədər Amerika nüvə başlığı yerləşir. 2010-cu ilin mart ayında Bundestaq üzvləri hökumətə Amerika nüvə silahlarının Almaniya ərazisindən çıxarılması ilə bağlı Vaşinqtonla danışıqlar aparmaq üçün mandat vermək üçün səs çoxluğu ilə səs verdilər. Lakin həmin vaxt Almaniya kabineti NATO tərəfdaşlarının razılığı olmadan birtərəfli tədbir görməyəcəyini elan etdi.

Fransa isə Avropanın müstəqil hərbi gücə çevrilməsində israrlıdır. Bu ziddiyyətlər "Avropa ordusu" ideyasının real mexanizmə çevrilməsini çətinləşdirir. Nəticədə Avropa bir tərəfdən qlobal təhdidlərin artdığını görür, digər tərəfdən isə daxili uzlaşma çatışmazlığı səbəbindən vahid və effektiv müdafiə strategiyası formalaşdıra bilmir. Bu isə qitəni yeni dünya nizamında daha kövrək və asılı vəziyyətdə saxlayır.

Qeyd edək ki, 2025-ci ilin mart ayında Fransa prezidenti Emmanuel Makron həmvətənlərinə müraciətində Avropa ölkələrini Fransanın nüvə silahının himayəsi altına qəbul etmək imkanı ilə bağlı müttəfiqləri ilə müzakirələrə başlayacağını açıqlamışdı. Almaniya, Polşa, Litva və Danimarka bu müzakirəyə açıq olduqlarını bildirmişdilər. Britaniyanın "Financial Times" qəzeti qeyd edib ki, ABŞ-ın Avropadakı müttəfiqləri ABŞ administrasiyasının Rusiya ilə münasibətləri bərpa etmək siyasətinə görə öz "nüvə qalxanı" yaratmaq imkanlarını araşdırırlar.



### İşingerdən çağırış...

Bu arada Münhen Təhlükəsizlik Konfransının sədri Volfqanq İşinger Avropanın NATO-nun nüvə çəkindirmə sistemində daha fəal iştirakının vacibliyini vurğulayıb və Almaniyanın bu məsələdə xüsusi rol oynaya biləcəyini qeyd edib. İşinger bildirib ki, indiyədək əsasən ABŞ-ın üzərində dayanan Şimali Atlantika Alyansının nüvə çətirinə Fransa və Böyük Britaniya əvvəlkindən qat-qat böyük töhfə verə bilər. "Əgər belə bir addım atılsa, bu, ruslar, amerikalılar və çinlilər üçün Avropanın özünü təsdiqi barədə bir siqnal olar", - deyə o bildirib.

Eyni zamanda Münhen Təhlükəsizlik Konfransının sədri Almaniyanın keçmiş kanslerləri Angela Merkel və Olaf Şoltsu tənqid edib. "Şəxsən mən başa düşmürəm ki, niyə kansler Merkel və ya kansler Şolts öz müşavirlərini və ya Bundesverin baş müfəttişini Parisə göndərməyib və deməyib ki, zəhmət olmasa, fransızların təklif etdiklərini ciddi şəkildə araşdırın", - deyə İşinger vurğulayıb.

### Hədəf Vaşinqton deyil, Moskvadır...

"Financial Times" qəzetinin yazdığına görə, Avropanın müdafiə qabiliyyətində ABŞ-a çatması onilliklər çəkəcək. Lakin Brüsselin qeyd etdiyi kimi, əsl məsələ Vaşinqtona deyil, Moskvaya çatmaqdır. Bu, əksər NATO üzvləri üçün olduqca həssas bir mövzu olaraq qalsa da, bəzi Avropa rəsmiləri qitənin təhlükəsizlik arxitekturasının daha aktiv müzakirəsi üçün təkid edirlər - Aİ Müdafiə Komissarı Andrius Kubilius sözügedən qəzetə verdiyi açıqlamada bildirib: "Bizə texniki olaraq ABŞ-ın dəstəyini, sözdə texniki bazanı necə əvəz edəcəyimiz barədə aydın bir strategiya lazımdır. Biz həmçinin müdafiə qabiliyyətimizin ideoloji əsaslarını daha fəal şəkildə müzakirə etməliyik. Biz bunu NATO-nun Avropa sütunu adlandıra bilərik. Bu müzakirələr getdikcə daha intensiv şəkildə aparılmalıdır. İndi bunun üçün ən uyğun zamandır, məhz buna ehtiyacımız var."

Təsadüfi deyil ki, Avropa ölkələri ABŞ-ın "qoruyucu çətiri" altından çıxmaq məsələsində sürətli addımlar atmağı planlaşdırırlar. Bir müddət öncə ABŞAvropa münasibətlərini müzakirə etmək üçün keçirilən Aİ liderlərinin sammitində 27 ölkə "orta və

### Uzun illər və 1 trilyon...

uzunmüddətli perspektivdə ABŞ-dan asılılığın sistematik şəkildə azaldılması" barədə razılığa gəliblər. Amma bu da vəziyyəti dəyişmir - çünki bu, bütövlükdə Avropanın qərarı olmur. Məsələn Böyük Britaniya Vaşinqtonla yaxın hərbi və kəşfiyyat əlaqələrinə malikdir, nüvə silahlarından çəkindirmə məsələsində də ABŞ-a güvənir. Təsadüfi deyildi ki, NATO-nun Baş katibi Mark Rutte Avropa Parlamentində bildirmişdi ki, "əgər burada kimsə Avropa İttifaqının və ya bütövlükdə Avropanın ABŞ olmadan özünü müdafiə edə biləcəyini düşünürsə, qoy xəyal qursun".

Statistika da bunu təsdiqləyir. Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun ötən il dərc etdiyi hesabatında bildirilir ki, ABŞ-ın Avropada hərbi mövcudluğunun dəyişdirilməsi (birdəfəlik satınalma xərcləri və avadanlıq xərcləri) 25 illik əməliyyat xərcləri daxil olmaqla 1 trilyon dollara başa gələcək. Bundan əlavə, ABŞ-ın Avropadakı nüvə çətiri dominantlığının qarşısının alınmasını Britaniya və Fransanın nüvə proqramlarını genişləndirməklə və ya yeni bir platforma hazırlamaqla əvəz etmək ayrıca, genişmiqyaslı bir işdir.

**P.İSMAYILOV**

# "Rəqəmsal qızıl" bazarında çalxalanma

## "Bitcoin"in kəskin ucuzlaşması investorları təşvişə salıb

2026-cı ilin ilk ayı və fevralın birinci günü dünya maliyyə bazarları üçün həm iqtisadi göstəricilərin, həm də geosiyasi proseslərin kəsişdiyi həssas bir dövr kimi xarakterizə oluna bilər. ABŞ, Almaniya, Avrozona və İngiltərədə açıqlanan makroiqtisadi məlumatlar investor gözləntilərini formalaşdırarkən, qlobal miqyasda davam edən geosiyasi gərginliklər bazarlarda riskdən qaçış davranışını gücləndirməklə əsas aktivlərdə kəskin qiymət dalğalanmalarına səbəb oldu.

Dünyanın bir nömrəli iqtisadiyyatı olan ABŞ-da açıqlanan əsas iqtisadi göstəricilər artımın yavaşlaması siqnallarını verməklə biznes və maliyyə aktivliyində ləngimələrin müşahidə olunduğunu əks etdirməkdədir.

### İtkilər bir neçə yüz milyard dollara çatıb

Baş verənlərin fonunda dünyada ən bahalı kriptovalyuta (rəqəmsal pul) olan "Bitcoin"in dəyəri son dövrlərdəki yüksək sıçrayışlardan sonra aşağı enişə doğru istiqamətlənib. Ötən gün virtual pul bazarında "Bitcoin"in qiyməti 74-75 min dollar arasında olub. Bu, 2025-ci ilin aprel ayından bəri ilk dəfə qeydə alınan aşağı göstəricidir. Belə ki, sonuncu dəfə həmin rəqəmsal pulun dəyəri 75 min dollara təklif olunmuşdu. "Binance" satış platformasının göstəricilərinə əsasən, qeyd edilən kriptovalyutanın dəyəri ötən gün daha 4,8 faiz ucuzlaşaraq 74,8 min dollara düşüb. Bazarın ümumi dinamikası riskli aktivlərə marağın azalması, qlobal maliyyə bazarlarında qeyri-müəyyənliklərin artması və investorların qısamüddətli mənfəət realizasiyası ilə izah olunur.

Təxminlərə görə, kriptovalyuta bazarlarında baş verən kəskin enişlər nəticəsində qlobal investorların itkiləri bir neçə yüz milyard dollara çatıb. Son satış dalğasından həm fərdi investorlar, həm də böyük şirkətlər ciddi zərər görüb. Bununla belə, itkinin böyük hissəsinin real pullara bağlı olmadığı, "kağız üzərində" görünən dəyər itkisi olduğu vurğulanır. "CoinShares" araşdırma mərkəzinin rəhbəri Ceyms Batterfill hesab edir ki, investorlar indiki vəziyyətdə kapitalın hərəkətini rəqəmsal bazarda azaltmağa çalışır. Bazar iştirakçıları narahatdır və kripto üzrə istiqamətdəki qeyri-müəyyənliklər qiymətlərin bir qədər də aşağı enməsinə səbəb ola bilər.

### Yeni FES sədrinin elan olunması şok effekti yaradıb

Qeyd edək ki, "Bitcoin" qlobal maliyyə sektorunda qızıldan sonra ən çox birja dəyəri nümayiş etdirən və investorların marağında olan aktivdir. Son 2 ildə "Bitcoin"in qiyməti 3,5 dəfədən çox bahalaşaraq yanvarın sonlarında 105 min dollara qədər yüksəlib, dövriyyədəki ümumi dəyəri isə 2 trilyon dolları ötüb.

"Bitcoin"in dəyəri bir neçə amillə bağlıdır, burada real bazar prosesləri ilə yanaşı, spekulyativ simulyasiyalar da xüsusi rol oynayır. İlk növbədə, bu rəqəmsal valyutanın dəyərinə təsir edən mühüm amillərdən biri dolların dəyərindəki dəyişikliklərdir. Əgər dolların qlobal dəyəri azalarsa, "Bitcoin" bir qədər də bahalaşır. Bu nöqteyi-nəzərdən ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FES) yürütdüyü siyasət kripovalyutanın dəyərinə təsir edir. Eləcə də FES rəhbərliyində baş verən dəyişikliklər də bazar seqmentlərinə təsirsiz ötüşməyib. Bir neçə gün əvvəl Prezident Donald Tramp Kevin Uorşu Federal Ehtiyat Sisteminin sədri vəzifəsində Cerom Pauellin varisi kimi namizədliyini açıqlayıb və bununla da Mərkəzi Bank sistemində və maliyyə sektorlarında misli görünməmiş çalxalanmalar yaşanıb. Trampın "Onun FED-in ən böyük sədrlərindən biri, bəlkə də ən yaxşısı kimi tarixə düşəcəyinə heç bir şübhəm yoxdur. Hər şeydən önəmlisi, o tam mənada "mükəmməldir" və sizi əsla məyus etməyəcək. Təbriklər, Kevin!" ifadələri qlobal maliyyə icmasında parçalanmaya səbəb olub. Kriptobazar bossları yeni FES sədrinin faiz endirimlərinə gedəcəyinə inanırlar. Çünki hazırkı sədr Cerom Pauell faizlərin aşağı salınmasının qəti əleyhdarı kimi tanınır. Ehtimal olunur ki, FES sistemində dəyişikliklər bazarlarda ciddi dalğalanmalar yaradacaq.

### İnvestorlar ümidlidir: "Bitcoin" 140 min dollara yüksələcək

Tanınmış bazar tədqiqat institutu - "Bitget Research" şirkətinin aparıcı analitiki Rayan Linin fikrincə, "Bitcoin"in ucuzlaşması müvəqqəti xarakter daşıyır. Ekspert bildirib ki, indi əsas diqqət ABŞ-da pul siyasətinin gələcəyinə və FES-in əsas faiz dərəcəsini artırmasına yönəlib. Əgər investorlar növbəti 6 ay ərzində pul siyasətinin yumşaldılması siqnalı alsalar, kapitalın riskli aktivlərə qayıdacağını gözləməyə dəyər. Belə ki, qlobal maliyyə bazarlarında qeyri-müəyyənliklərin aradan qalxması fonunda investorların yeni realizasiyası baş verə bilər ki, bu da "Bitcoin"in 110 min dollara qədər bahalaşmasına gətirib çıxaracaq. Ardınca qiymətli kriptopul 2026-cı ilin ikinci rübündə daha 10 min dəyər qazanmaqla birjalarda 120 min - 125 min dollar arasında satıla bilər. 2026-cı ilin ikinci yarısında isə "Bitcoin"in gözlənilməz rekordu təzələyə, 140 min dollara çatması gözlənilir..

Bununla yanaşı, Rayan Li ehtimallarının gerçəkləşməsi üçün investorların kapitallarının kripto bazarına axınını artırmalarını vacib sayır. Onun qənaətinə görə, likvidlik artarsa, artım olacaq, yeni kapital axını gəlməsə, "Bitcoin" qiymət diapazonu 120 min dolları ötə bilməyəcək.

İnvestorlar "Bitcoin"in bahalaşması üçün 2 mühüm amili də diqqətdə saxlayırlar. Bu, FES-in faiz dərəcələrini endirəcəyi gözləntisi və institusional alışların artması ilə bağlıdır. Hər iki ssenari üzrə gözləntilərə yaxın vaxtlarda FES-in verəcəyi növbəti faiz qərarı təsir edəcək.

### Qızıl da dəyər itirir - unsiyası 163 dollardan çox ucuzlaşıb

ABŞ-ın makroiqtisadi göstəricilərindəki tendensiyalar öz siqnallarını digər bazar alətlərinə, o cümlədən ən dəyərli maliyyə aktivi olan qızıla da ötürüb və sarı metalın unsiyası 163 dollardan çox ucuzlaşıb. Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 4 min 581,5 dollar təşkil edib. Gümüş isə 3,95 dollar azalaraq 74,59 dollara bərabər olub.

Bazar tədqiqatçıları qızılın və digər aktivlərin dəyərindəki ucuzlaşmanın iqtisadi amillərlə yanaşı, geosiyasi risklərdən qaynaqlandığını da istisna etmirlər. Belə ki, ABŞ-Çin münasibətlərində ticarət və texnologiya sahəsində davam edən gərginlik qlobal iqtisadi artım perspektivlərinə dair narahatlıqları artırdığından investorların yeni sərmayə həvəsi məhdudlaşıb. Bu gərginlik xüsusilə Asiya bazarlarında və texnologiya sektorunda ticarətdə qırılmalara da səbəb olub. Eyni zamanda, ABŞ-ın Qrenlandiya ilə bağlı strateji maraqlarını və Arktika bölgəsində təsir dairəsini genişləndirməyə yönəlik ritorikasını yenidən gündəmə gətirməsi transatlantik münasibətlərdə narahatlıq yaradır. Qrenlandiyanın geostrateji mövqeyi, təbii resurs potensialı və Arktika marşrutlarına nəzarət imkanları ABŞ-Avropa xəttində siyasi gərginliyin artması da investorların risk qiymətləndirmələrini yenidən sərtləşdirib.

Beləliklə, "Bitcoin"in və qızılın yaxın vaxtlarda real bazar qiymətləri ABŞ-ın monetar siyasəti, iqtisadi göstəricilər, bazar riskləri və geosiyasi proseslər fonunda müəyyənləşəcək. Qlobal maliyyə bazarlarında qeyri-müəyyənliklər səngiyəcəyi halda həm qızıl, həm də "rəqəmsal qızıl"ın bahalaşması istisna deyil.

**E.CƏFƏRLİ**



YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Baş rejissorsuz...

## “Bu, uzun müzakirələrdən sonra gəlinən bir konsepsiyanın nəticəsidir”



*Yeganə BAYRAMOVA*

Məlum olduğu kimi, bir müddət öncə Azərbaycanda dövlət teatrlarında bədii rəhbər, baş rejissor, baş rəssam və digər bir sıra vəzifələr ləğv edilib. Yeni struktur çərçivəsində teatrlarda strategiya və kommunikasiya, yaradıcı, eləcə də artist heyətinin idarəedilməsi şöbələri yaradılıb. Artıq uzun illərdir bir sıra teatrlar baş rejissorsuz qalıb. Sənət cameəsi bu vəzifələrə təyinatların nə vaxt həyata keçiriləcəyini səbirsizliklə gözlədiyi vaxtda, Mədəniyyət Nazirliyi “Teatr və teatr fəaliyyəti haqqında” qanunun tələblərinə uyğun olaraq, dövlət teatrlarının əsasnamələrinin, struktur və ştat cədvəllərinin yenidən işlənərək təsdiqlədiyini açıqlayıb.

Yeni yanaşmaya uyğun olaraq mövcud idarəetmə strukturunda yer alan baş rejissor, baş rəssam, bədii rəhbər və digər oxşar vəzifələr yeni struktura daxil edilməsələr də, onların funksiyaları daha çevik və nəticəyönümlü idarəetmə modeli çərçivəsində yenidən bölüşdürülüb. Yenilənmiş strukturda teatrların fəaliyyətinin daha sistemli təşkili üçün strategiya və kommunikasiya şöbəsi, yaradıcı şöbə, artist heyətinin idarəedilməsi və digər funksional bölmələr yaradılıb.

**Qərarı Mədəniyyət Nazirliyi verib**

Akademik Milli Dram Teatrının keçmiş baş rejissoru Mehriban Ələkbərzadə “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, bu qərarı Mədəniyyət Nazirliyi verib: “Ümumiyyətlə, bütün qərarlar nazirlik tərəfindən verilir. Yayılan iddialara əsasən, guya məni işdən çıxara bilmədikləri üçün bütün teatrlarda baş rejissor ştatını ləğv etmək məcburiyyətində qalıblar. Bu, tamamilə yanlış informasiyadır. Mədəniyyət Nazirliyi tək Mehriban Ələkbərzadəyə görə bütün teatrların baş rejissor məsələsini bu cür bəsit həll edərmi? Azərbaycanda 26 teatr var. Ən azı Bakıda 11 teatr fəaliyyət göstərir. Bu qədər teatrın baş rejissorlarının vəzifəsi mənə görə ləğv edilib?”.

Mehriban Ələkbərzadə qeyd edib ki, Akademik Milli Dram Teatrının aktyorları hesab edir ki, məni işdən çıxara bilmədikləri üçün bütün teatrların ştatı ləğv edilib: “Həmin aktyorların savadı ora qədərdir. Rəsmi qurum Mədəniyyət Nazirliyidir. Bu, uzun müzakirələrdən sonra gəlinən bir konsepsiyanın nəticəsidir”.

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının mətbuat xidmətinin rəhbəri Samirə Əşrəf də 2023-cü ildən etibarən teatrın baş rejissorsuz fəaliyyət göstərdiyini qeyd edib.

**Teatrlarımız son illərdə...**

“Məqsəd qərarların bir nəfər üzərində cəmlənməsi deyil, kollektiv məsuliyyət və aydın funksional bölgü mexanizminin formalaşdırılmasıdır”, - bu barədə Mədəniyyət Nazirliyinin məlumatında qeyd olunub.

“Belə çıxır ki, teatrda islahatların aparılmasının bir mühüm səbəbi məsuliyyəti paylaşdırmaqdırsa, digər səbəbi də bu vəzifə sahiblərinə səlahiyyətlərindən sui-istifadə imkanı yaratmamaqdır. Sirr deyil ki, teatrlarımız son illərdə özlərinin repertuarlarından çox “bir nəfərin üzərində cəmlənən qərarların” yaratdığı rejissor-aktyor, aktyor-bədii rəhbər davaları ilə gündəmə gəlib. Arzu edək ki, yeni qərar təkcə teatrlarımızın idarəetməsini asanlaşdırmayacaq, eyni zamanda, onların yaradıcı fəaliyyətlərini daha da təkmilləşdirəcək, yeni-yeni səhnə nailliyyətlərinin qapısını açacaq”, - Nazirlikdən bildirilib.

# Ümumdünya Dinlərarası Harmoniya Həftəsi keçirilir

Ümumdünya Dinlərarası Harmoniya Həftəsi hər il fevralın ilk həftəsində qeyd olunur. 2021-ci ildən etibarən bu tarixə Beynəlxalq İnsan Qardaşlığı Günü də daxildir.

BMT Baş Assambleyası özünün 65/5 saylı qətnaməsində hər il fevralın ilk həftəsini bütün dinləri, etiqadları və inancları birləşdirən Ümumdünya Dinlərarası Harmoniya Həftəsi elan edib. O, həmçinin bütün dövlətləri dini ənənələrindən və ya inancından asılı olmayaraq, Uca Yaradana və qonşuya sevgiyə, yaxşılığa, hörmət əsasında kilsələrdə, məscidlərdə, sinaqoqlarda, məbədlərdə və digər ibadət evlərində dinlərarası harmoniyanın və xoşməramlılığın yayılmasını könüllü olaraq dəstəkləməyə çağırıb. Bu il fevralın 11-də keçirilməsi planlaşdırılan 11-ci illik Cenevrə Dinlərarası Dialoqu səfirləri, dünyanın əsas dinlərinin yüksəksəviyyəli nümayəndələrini və beynəlxalq ictimaiyyəti din, siyasət və diplomatiya arasındakı əlaqələri müzakirə etmək üçün bir araya gətirəcək. Tədbirin məqsədi sosial inkişafın və sülhün möhkəmləndirilməsində dinlərarası dialoqun rolunu vurğulamaqdır.

Həftənin başlanması ilə bağlı BMT-nin yaydığı məlumatda qeyd olunur ki, müasir dünyada ölkələr getdikcə daha çox bir-biri ilə əlaqəli olsa da, bu, insanların və cəmiyyətlərin həqiqətən birlikdə yaşadığı anlamına gəlmir. Bu parçalanma milyonlarla yoxsul insanın, qadınların, gənclərin, miqrantların və imkansız azlıqların üzləşdiyi təcriddə özünü göstərir. Bu gün bəşəriyyət əvvəlkindən daha çox məlumata, texnologiyaya və biliyə malikdir, lakin hələ də münaqişələrin qarşısını almaq, yoxsulluğu aradan qaldırmaq və təhlükəsiz bir dünyada ahəngdar yaşamağı öyrənmək üçün insanları bir araya gətirmək üzrə müdrikliyə malik deyil.

“Biz qəbul etməliyik ki, hazırda hökm sürən qeyri-sabitlik və qloballaşma şəraitində sülh məfhumu yalnız müharibənin olmaması demək deyil. Sülh həm də fərqlərə - cins, irq, dil, din və ya mədəniyyətlər müxtəlifliyinə rəğmən birlikdə yaşamaq, habelə bu birgəyaşayışın əsaslandığı universal ədaləti və insan hüquqlarına hörməti təşviq etmək deməkdir. Buna görə də, sülh adi bir məfhum kimi qəbul edilməməlidir. Bu, davamlı prosesdir, daimi təkmilləşmə, sayıqlıq və hamının fəal iştirakını tələb edən uzunmüddətli bir məqsəddir. Eyni zamanda,



bu, hər bir konkret vəziyyətdə edilən bir seçimdir; nə qədər yaxın və ya uzaqda yaşamalarından asılı olmayaraq, başqaları ilə, özgə icmalarla həqiqi dialoq aparmaq üzrə gündəlik qərardır”, - deyə BMT-nin məlumatında vurğulanır.

Qlobal təşkilat hesab edir ki, UNESCO-nun Mədəni Müxtəliflik haqqında Ümumdünya Bəyannaməsinin prinsiplərinə uyğun olaraq, bu gün dialoq, zorakılığı aradan qaldırmaq və mədəniyyətlərin qorunmasını gücləndirən dəyərləri, davranışları və münasibətləri gücləndirmək, onları təşviq etmək daha çox vacibdir. Bəyannamədə deyilir: “Getdikcə müxtəlifləşən cəmiyyətimizdə plüralizmi, müxtəlif və dinamik mədəni kimliklərə malik fərdlər və icmalar arasında ahəngdar qarşılıqlı əlaqəni və birgəyaşayış arzusunu təmin etməliyik. Bütün vətəndaşların bu prosesə daxil olmasını və iştirakını təşviq edən siyasətlər sosial birlik, vətəndaş cəmiyyətinin canlılığı və sülh üçün açardır. Bu mənada, plüralizm mədəni müxtəlifliyin reallıqlarına siyasi cavabı təmsil edir. Demokratiya ilə ayrılmaz şəkildə bağlı olan mədəni plüralizm, cəmiyyətin canlılığını qidalandıran mədəni mübadilələr və yaradıcılığın çiçəklənməsi üçün əlverişli mühit yaradır” (Maddə 2. “Mədəni müxtəliflikdən mədəni plüralizmə”).

BMT-nin məlumatında daha sonra vurğulanır: “Müasir cəmiyyət getdikcə artan çətinlik və təhdidlərlə, o cümlədən bərabərsizlik, təcrid, zorakılıq və məzhəbçilik halları ilə üzləşir. Çoxalan qlobal problemlər sosial birliyi sarsıdan yerli gərginlik və münaqişələrlə daha da ağırlaşır. Bu kontekstdə birlikdə yaşamağı öyrənmək xüsusi əhəmiyyət kəsb edir. Təhsil və həyat təcrübəsi insanlara mürəkkəb və müxtəlif cəmiyyətlərdə uğurlu həyat üçün zəruri olan mədəniyyətlərarası bacarıqları əldə etməyə kömək edir. Bu bacarıqlar onlara yalnız müxtəlifliyi qiymətləndirməyə deyil, həm də münaqişələri plüralizm və qarşılıqlı anlaşma dəyərlərinə uyğun olaraq həll etməyə imkan verir”.

Azərbaycan dünya səviyyəsində dinlərarası dialoqun təşviqində mühüm rol oynayır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dinlərarası hörmət və etimad, etiqad azadlığının təmin edilməsi siyasəti hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, ölkəmizdə tolerant dəyərlər ciddi mühafizə olunur. Azərbaycanda bütün dini inanclara hörmətlə yanaşılır, bu məsələdə heç bir ayrı-seçkiliyə yol verilmir. Ölkə əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, burada xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh, əmin-amanlıq şəraitində birgə yaşayırlar. Eyni zamanda, ölkə ərazisində mövcud olan İslam dini abidələri ilə yanaşı, digər dinlərə aid ibadət ocaqları maddi-mənəvi irs kimi qorunub saxlanılır. Hazırda Azərbaycanda 33 qeyri-müsəlman dini icması fəaliyyət göstərir ki, bu da çox böyük göstəricidir. Bununla yanaşı, ölkəmiz dinlər və mədəniyyətlər arasında dialoqun təmin edilməsi üzrə mötəbər beynəlxalq forumlara ev sahibliyi edir, dünyanın müxtəlif dinlərə mənsub olan xadimlərini bir araya gətirir.

# Azercell Gənclər Günü ərəfəsində Beynəlxalq İnformatika Olimpiadası üzrə milli komanda ilə görüş keçirib



Gənclər Günü ərəfəsində Azercell-in dəstəyi ilə informatika üzrə beynəlxalq olimpiadalara hazırlaşan Azərbaycan milli komandasının üzvləri şirkətin qonağı olub. Görüş gənc istedadların beynəlxalq arenada əldə etdikləri nailiyyətləri, eləcə də bu uğurların arxasında dayanan uzunmüddətli və sistemli əməkdaşlıq modelini ön plana çıxarıb.

Tədbirdə “Azercell Telekom” MMC-nin Korporativ və Marketinq Ünsiyyət Vasitələri Departamentinin direktoru Sona Abbasova, şirkətin nümayəndələri, Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev, eləcə də milli yığmanın müəllimləri iştirak ediblər.

Qeyd edək ki, Azercell və Azərbaycan Respublikasının Təhsil İnstitutu arasında informatika üzrə milli yığmanın hazırlanması istiqamətində əməkdaşlıq 2017-ci ildən etibarən həyata keçirilir. Bu əməkdaşlıq çərçivəsində şagirdlər üçün əlavə hazırlıq dərsləri təşkil olunur, beynəlxalq olimpiadalara sistemli hazırlıq prosesi dəstəklənir, eləcə də gənclərin proqramlaşdırma və İT sahəsində bilik və bacarıqlarının inkişafına töhfə verilir. Hazırda proqram çərçivəsində illik olaraq 90 şagird əlavə hazırlıq prosesinə cəlb olunur.

Bu müddət ərzində milli yığmanın üzvləri informatika üzrə nüfuzlu beynəlxalq və regional olimpiadalarda uğurla çıxış edərək 6 qızıl, 33 gümüş və 65 bürünc olmaqla ümumilikdə 104 medal qazanıblar.

Tədbiri açan Sona Abbasova bildirib: “Şirkətimiz istedadlı gənclərin inkişafına, İT və proqramlaşdırma istiqamətlərində bilikyönümlü və ixtisaslı insan kapitalının formalaşmasına xüsusi diqqət yetirir. Sizin beynəlxalq olimpiadalarda əldə etdiyiniz nəticələr bizi həm qürurlandırır, həm də bu təşəbbüsün əhəmiyyətini bir daha gündəmə gətirir. İnanıram ki, bu gün dəstək göstərdiyimiz gənclər sabah ölkənin texnoloji inkişafına töhfə verən peşəkar kadrlara çevriləcəklər”.

Fuad Qarayev də bu tərəfdaşlığı yüksək qiymətləndirdiyini qeyd edib:

“Azercell-in dəstəyi sayəsində informatika üzrə milli komandanın üzvləri beynəlxalq yarışlara daha sistemli və peşəkar şəkildə hazırlanır. Şagirdlər üçün əlavə hazırlıq dərslərinin təşkili, məqsədyönlü hazırlıq proqramlarının həyata keçirilməsi və xüsusi tədris mühitinin yaradılması gənclərin potensialının üzə çıxarılmasına şərait yaradır. Bu cür kompleks yanaşma onların beynəlxalq olimpiadalarda göstərdikləri nəticələrə birbaşa təsir göstərir və eyni zamanda, ölkədə yeni nəsil İT və İKT mütəxəssislərinin formalaşmasına töhfə verir”, - deyə Fuad Qarayev bildirib.

Tədbirin sonunda informatika üzrə beynəlxalq olimpiadaların medalçıları sertifikatlar və hədiyyələrlə təltif olunublar.

# “İnnovasiya və Süni İntellekt” üzrə təqaüd proqramına qeydiyyat davam edir - Gənclərin nəzərinə




İnnovasiya lideri Bakcell və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə tərəfdaşlığı çərçivəsində həyata keçirilən təqaüd proqramı gənclər arasında böyük marağa səbəb olur. İnnovasiya, süni intellekt və müasir rəqəmsal bacarıqların inkişafına yönəlmiş təqaüd proqramına artıq 800-dən çox gənc müraciət edib.

Qeyd edək ki, təqaüd proqramı gənclərin innovativ potensialını gücləndirməyi, onları süni intellekt, data analitikası, proqramlaşdırma və UI/UX dizayn sahələri üzrə praktiki təlimlər və real bacarıqlarla gələcəyin peşələrinə hazırlamağı hədəfləyir. Təşəbbüs ümumilikdə 150 gəncin inkişafına və yeni nəsil mütəxəssislərin formalaşmasına töhfə verəcək.

18-29 yaş arası və IT sahəsi üzrə baza biliklərə sahib olan gənclər, bu fürsəti qaçırmayın. Təqaüd proqramına http://youthfoundation.az/ saytı vasitəsilə müraciət edərək gələcəyinizi bu gündən formalaşdıra bilərsiz. Xatırladaq ki, qeydiyyat üçün son tarix 16 fevraldır.

Bakcell olaraq, Gənclər Günü münasibətilə ölkəmizin bütün gənclərini təbrik edir, onların innovasiya və biliklə formalaşan uğurlu gələcəyinə töhfə verməkdən qürur duyuruq.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# “Nar” və Dövlət Məşğulluq Agentliyi Anlaşma Memorandumu imzaladı



“Nar” və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi arasında məşğulluq və insan kapitalının inkişafı istiqamətində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Memorandum Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Hasil Abbasov və “Nar”ın baş icarçı direktoru Özgür Genc tərəfindən imzalanıb.

Əməkdaşlıq çərçivəsində tərəflər iş yarmarkalarının birgə təşkili, işaxtaran və işsiz şəxslərin peşəyönümü və peşə hazırlığının dəstəklənməsi, bilik və bacarıqların artırılması üzrə təşəbbüslərin həyata keçirilməsi, həmçinin korporativ sosial münasibətlərin inkişafına yönəlmiş layihələr üzərində işləyəcəklər.

Anlaşma memorandumunun imzalanma mərasimində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Hasil Abbasov işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin olunmasında işəgötürənlərlə tərəfdaşlığın mühüm rol oynadığını vurğulayıb və “Nar” ilə imzalanan memorandumun da işsiz və işaxtaran şəxslərin məşğulluq imkanlarının genişləndirilməsinə, eləcə də özəl sektorla əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edəcəyini qeyd edib.

“Nar”ın baş icraçı direktoru Özgür Genc bildirib: “İnanırıq ki, dövlət və özəl sektorun birgə səyləri nəticəsində işaxtaran şəxslərin potensialını üzə çıxarmaq, onların bacarıqlarını əmək bazarının tələblərinə uyğunlaşdırmaq və uzunmüddətli məşğulluq imkanları yaratmaq mümkündür.”

Qeyd edək ki, bu memordandum çərçivəsində tərəflər arasında işgüzar görüşlər keçiriləcək, aktiv məşğulluq tədbirlərinə cəlb olunan şəxslərin dəstəklənməsi məqsədilə maarifləndirmə və məlumatlandırma təşəbbüsləri həyata keçiriləcək.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4628
Sifariş: 176
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova